

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 avqust
2026-cı il,
çərşənbə
№ 147 (7214)
Qiyməti
60 qəpik


## Rusiya səfiri Azərbaycan XİN-ə çağırılıb

**Azərbaycan xalqına və Azərbaycan rəhbərliyinə qarşı fiziki zorakılıq xarakterli çağırışların səsləndirilməsinin qəbuledilməz olduğu vurğulanıb**

Bax səh. 4

# Bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı maraqlar və ədalət...



## Bakı yeni nizamda güc mərkəzləri ilə münasibətlərin konturlarını özü müəyyənləşdirir

Bax səh. 2

## Azərbaycan Mətbuat Şurası bəyanat yayıb

**Rusiyanın informasiya məkanında Azərbaycana qarşı təhqiramiz fikirlər yolverilməzdir**

Bax səh. 3

## Ötən 7 ayda...

Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun artım dinamikası ixracın həcm və dəyərinin artmasına da təsir göstərib. Belə ki, 2026-cı ilin yanvar-iyul aylarında iqtisadiyyatda yaradılan 76,8 milyard manat həcmində əlavə dəyərin 53,9 milyard manatı və ya 78 faizi qeyri-neft mənbələrində cəmləşib ki, bu da həmin drayverlərin ixrac hərəkətliliyini artırıb. Bunun nəticəsidir ki, cari ilin 7 ayında qeyri-neft-qaz ixracı rekord təzələyərək 5 milyard 933 milyon 171 min dollara çatıb. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə (həmin dövrdə göstərici 2 milyard 87 milyon 970 min dollar olub) 3 milyard 845 milyon 201 min dollar çoxdur. Beləliklə, qeyri-neft-qaz məhsullarının ümumi ixracdakı payı 13,7 faizdən 30,7 faizə yüksəlib. Yəni, faktiki olaraq ixracın 3-dən biri və ya hər 3 dolların 1 dolları qeyri-neft məhsulllarından ibarətdir.

Qeyri-neft ixracında əsas məhsul qızıl olub, sarı metalın ixrac dəyəri 3,7 milyard dollar təşkil edib. Qızılın çəki həcmi isə 24,52 ton işlənməmiş, yarımişlənmiş və ya toz şəklində olub. Bu məhsul ümumi ixracın 19,2 faizini, qeyri-neft-qaz ixracının isə 62,5 faizini formalaşdırıb. Ötən 7 ayda qeyri-monetar (qızıl nəzərə alınmadan) ixracın dəyəri isə 2,5 milyard dollar olub. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz artım deməkdir. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 123 milyon dollar, qeyri-yeyinti məhsullarının ixracı isə 26 faiz artaraq 261,8 milyon dollar təşkil edib.

Cari ilin yanvar-iyul...

Bax səh. 5



## Müharibə cinayətlərinin fəsadları - mina terroru davam edir...

Bax səh. 3

## Şuşadan başlanan yol yeni mahiyyət qazanır

Bax səh. 5

## Latviya və Ukrayna Avropaya nə öyrədir

Bax səh. 7

## Dünya qlobal ərzaq böhranına doğru

Son illərdə dünyanın ərzaq bazarında ciddi narahatlıqlar yaşanmaqdadır. Getdikcə daha çox dərəcədə təklif tələbatı qarşılamır və bu reallıq fonunda qiymətlərdə kəskin artımlar müşahidə olunur. Nəticədə, yüz minlərlə insanın ən zəruri ərzaq məhsullarına əlçatanlığı kəskin şəkildə məhdudlaşır.

Yaşanan qlobal ərzaq böhranı əsas etibarı ilə iki amillə şərtlənir. Bunlardan biri qlobal səviyyədə iqlim dəyişmələrinin intensivləşməsidir. Qlobal istiləşmə quraqlıq, su çatışmazlığı yaradır ki, bu səbəbdən də maldarlıq və bitkiçilik üçün şərtlər çətinləşir.

Dünyanı qlobal ərzaq böhranına aparan digər amil müharibələrdir. Yaxın Şərqdə və Şərqi Avropada uzanan müharibələr təchizat marşrutlarını təhlükəli hala gətirib ki, bunun da kədərli nəticələri lakmus kağızı kimi özünü istehlak bazarlarında biruzə verir. Həmçinin geosiyasi və geoiqtisadi maraqların ifadəsi olaraq tətbiq olunan yüksək rüsumlar da istehlak bazarına ciddi təzyiqlər yaradır.

İyul ayında qlobal ərzaq qiymətləri indeksi 0,6 faiz artaraq son üç ildən çox müddətdə ən yüksək səviyyəyə çatıb. Bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) məlumat yayıb.

Bildirilir ki, FAO-nun ərzaq qiymətləri indeksi iyulda orta hesabla 131,1 bənd təşkil edib. İndeks aylıq olaraq 0,6 faiz, illik əsasda isə 1 faiz artıb. Taxıl, şəkər tozu və bitki yağlarının qiymət indekslərindəki...

Bax səh. 4



## Vannacci fenomeni: İtaliyada nə baş verir və Avropanın sağa dönüşü nə deməkdir?

Bax səh. 6



## 3 aydan sonra...

Bax səh. 6

# Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 18-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Normanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Çıxışına Azərbaycan dilində başlayan Dankan Norman dedi: "Zati-aliləri, həyat yoldaşım Kerri ilə mən 27 il əvvəl Azərbaycana ilk dəfə gələndə insanların mehribanlığı və Bakının böyük potensialı bizi çox təsirləndirdi. O vaxtdan bəri Azərbaycan çox böyük inkişaf yolu keçib. Ölkələrimiz arasındakı münasibətlərdə yeni səhifəni açmaqdan şərəf duyuram".

Birləşmiş Krallıq ilə Azərbaycan arasında yeni strateji tərəfdaşlıq üzərində işin davam etdiyini bildirən səfir bunun ortaq prioritetlərimiz üzrə daha dərin əməkdaşlıq, təhlükəsizliyin gücləndirilməsi və innovasiyalar vasitəsilə nailiyyətlərimizi daha da inkişaf etdirəcəyini vurğuladı.

Səfir bərpaolunan enerji, müdafiə, aviasiya istiqamətlərində ölkəmizlə dinamik tərəfdaşlıq qurmaq istədiklərini dedi, təhsil sahəsində əlaqələri qeyd etdi və gənclər arasında körpülərin gücləndiyini diqqətə çatdırdı.



O, Prezident İlham Əliyevin Azərbaycanla Ermənistan arasında sülhün qurulması istiqamətində səylərinin Böyük Britaniya Hökuməti tərəfindən təqdir edildiyini və bu irəliləyişin dəstəkləndiyini dedi.

Dankan Norman, eyni zamanda, ölkəsinin Azərbaycanın minatəmizləmə səylərini dəstəkləyən ilk beynəlxalq tərəfdaş olduğunu xatırlatdı.

Dövlətimizin başçısı səfirə Bakıda xoş vaxt keçirməyi arzuladı, onun Azərbaycan dilində danışmasını yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev gündəliyimizlə bağlı məsələlərin yalnız ikitərəfli müstəvidə deyil, regional inkişaf və əməkdaşlıq baxımından da böyük əhəmiyyət kəsb etdiyini dedi.

Minatəmizləmə sahəsində yardıma görə Böyük Britaniya Hökumətinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı bu sahədə ölkəmizin daha sıx beynəlxalq əməkdaşlığa ehtiyacı olduğunu bildirdi.

Otuz il əvvəl Azərbaycan-Böyük Britaniya əməkdaşlığının məhz enerji sahəsində başladığını xatırladan Prezident İlham Əliyev hazırda bərpaolunan enerji istiqamətində tərəfdaşlıq üçün böyük potensialın olduğunu bildirdi, bu xüsusda ölkəmizdə ilk Günəş elektrik stansiyasının bp tərəfindən tikildiyini qeyd etdi.

Dövlətimizin başçısı müstəqilliyimizin 35 ilinin bir ilini sülh şəraitində yaşadığımızı deyərək bunun region üçün böyük bir dəyişiklik olduğunu vurğuladı.

Prezident İlham Əliyev dedi ki, regiondakı vəziyyəti nəzərə alaraq, təhlükəsizlik bizim gündəliyimizdə prioritet olmağa davam edəcək.

Ölkəmizdə müsbət investisiya mühitinin yaradıldığını deyən dövlətimizin başçısı Azərbaycan və Britaniya şirkətləri tərəfindən böyük qarşılıqlı marağın olduğunu vurğuladı.

Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzuladı.

# Bərabərhüquqlu əməkdaşlıq, qarşılıqlı maraqlar və ədalət...

## Bakı yeni nizamda güc mərkəzləri ilə münasibətlərin konturlarını özü müəyyənləşdirir

## Prezident İlham Əliyevin bu ilin 6 ayında səsləndirdiyi prioritetlər...



2026-cı ilin arxada qalan dövrünün ən diqqətçəkən məqamlarından biri Azərbaycan ilə Avropa qitəsi arasında münasibətlərin dinamik, işgüzar və hətta yeni bir mərhələyə qədəm qoyması oldu. Son ayların geosiyasi mənzərəsi göstərir ki, Azərbaycan-Avropa münasibətləri artıq yalnız enerji tərəfdaşlığı və iqtisadi əməkdaşlıq çərçivəsində izah edilə bilməz. Avropada təhlükəsizlik arxitekturasının dəyişməsi, yeni nəqliyyat və enerji marşrutlarının aktuallaşması, Cənubi Qafqazda yaranmış yeni reallıqlar Azərbaycanın Avropa üçün strateji əhəmiyyətini daha da artırıb. Bakı isə bu prosesdə özünü yalnız regional tərəfdaş kimi deyil, orta güc statusunda aparıcı güc mərkəzləri arasında əlaqələndirici rol oynaya bilən aktor kimi təqdim edir.

Azərbaycanın xarici siyasətinin mühüm xüsusiyyətlərindən biri onun həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq formatlarına eyni dərəcədə önəm verməsidir. Bakı ayrı-ayrı Avropa dövlətləri ilə birbaşa siyasi, iqtisadi və enerji əlaqələrini inkişaf etdirməklə yanaşı, Avropa İttifaqı ilə də ayrıca institusional dialoqa, regional və beynəlxalq çoxtərəfli platformalarda əməkdaşlığa əhəmiyyət verir.

### Avropanın Bakı ilə yeni strateji xətti

Vurğulandığı kimi, son səkkiz ayda Avropanın yüksək səviyyəli rəsmilərinin Bakıya səfərləri və Azərbaycanla bağlı səsləndirilən mesajlar münasibətlərin yeni mərhələyə keçdiyini göstərir. Çexiya, Latviya, Serbiya, İtaliya, Almaniya və bu kimi dövlətlərin rəhbər şəxsləri, Avropa Komissiyasının Prezidenti, Avropa İttifaqı Şurasının Prezidenti Azərbaycanın yeni iqtisadi dönəmdə rolunu ən yüksək səviyyədə qiymətləndirir. Bu təmaslarda enerji əməkdaşlığının genişləndirilməsi ilə yanaşı, Azərbaycanın Avropanın yeni nəqliyyat və bağlantı strategiyasındakı rolu da xüsusi vurğulanır. Bakı artıq Avropa üçün Şərqlə Qərbi birləşdirən mühüm geosiyasi və geoiqtisadi platforma kimi nəzərdən keçirilir.

Xüsusilə Xəzər hövzəsinin enerji resurslarının Avropa bazarlarına çıxarılması, yaşıl enerjinin ixracı, elektrik bağlantılarının qurulması və Orta Dəhlizin inkişafı Azərbaycan-Aİ əməkdaşlığının gündəliyini əhəmiyyətli dərəcədə genişləndirir. Avropalı liderlərin Bakıda verdiyi mesajlar göstərir ki, Aİ Cənubi Qafqazda formalaşan yeni nəqliyyat arxitekturasında Azərbaycanın fəal iştirakını strateji üstünlük hesab edir. Bu yanaşma Azərbaycanın çoxvektorlu xarici siyasətinin və regional təşəbbüslərinin nəticəsidir. Bu ilin martında Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın ölkəmizə səfəri çərçivəsində baş tutan mətbuat konfransında Prezident İlham Əliyev bildirdi ki, "Biz sizin (Antonio Koşta - red.) səfərinizə böyük əhəmiyyət veririk və əminəm ki, bu, bizim ikitərəfli münasibətlərimizin inkişafına böyük töhfə verəcək. Onlar uğurla inkişaf edir, xüsusilə son dövrlərdə. Bizim çox fəal dialoqumuz var". Dövlətimizin başçısı qeyd etdi ki, biz əməkdaşlığımızın çox fəal mərhələsindəyik.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında Avropa Komissiyasını nəzərdə tutaraq bildirdi ki, "Yeni Komissiya ilə münasibətlərimiz yaxşılaşmağa başladı. Bu, xüsusən də əlaqələrin yenidən baxılması üçün qarşılıqlı böyük marağı gördüyümüzdən sonra baş verdi və biz bunları dəstəklədik. Sizə sadəcə deyə bilərəm ki, bu ilin bir neçə ayı ərzində Brüsseldən bir sıra mühüm səfər oldu. Martda Avropa İttifaqı Şurasının Prezidenti cənab Koşta, mayda Avropa diplomatiyasının rəhbəri xanım Kallas və iyulda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Azərbaycana gəldilər. Onların və mənim ictimaiyyətə açıqlamalarımızda hər iki tərəfin əməkdaşlıq səviyyəsindən razı qaldıqlarını görə bilər".

Bu yanaşma Azərbaycanın xarici siyasətində əsas məqamdır - Bakı əməkdaşlıq imkanlarını qlobal dünyaya təqdim edir, qarşılıq görəndə isə bu əməkdaşlıq real məzmun qazanır.

### Bakı Avropa üçün gələcək inkişaf mərhələsi yaradır

Bu ilin iyulunda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin Bakı səfəri zamanı keçirilən mətbuat konfransında Prezident İlham Əliyev bildirdi ki, "Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətlərin çox mühüm mərhələsindəyik. Bu ilin martında biz Avropa İttifaqı Şurasının Prezidenti cənab Koştanı, sonra may ayında isə Avropa diplomatiyasının rəhbəri xanım Kallası qəbul etdik. Bu gün isə Avropa Komissiyasının Prezidenti bizimlədir. Beləliklə, deyərdim ki, əməkdaşlığımızı genişləndirmək və tərəfdaşlığımızı gücləndirmək məqsədilə hər iki tərəfin qarşılıqlı iradəsini əks etdirən münasibətlərimizdə görünməmiş dinamika müşahidə olunur".

Bəli, Azərbaycan Avropa İttifaqı üçün də cəlbedici tərəfdaşdır - Brüsselin marağı daha böyükmiqyaslıdır.

- Birincisi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaşlardan biridir. Cənub Qaz Dəhlizi, təbii qaz ixracının genişləndirilməsi və yaşıl enerjinin Avropaya çatdırılması perspektivləri Bakının enerji xəritəsindəki rolunu uzunmüddətli xarakterə çevirir.
- İkincisi, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutlarının kəsişməsində yerləşməklə Avropanın Asiya bazarlarına çıxışını şaxələndirən mühüm logistika mərkəzinə çevrilir.
- Üçüncü mühüm amil Azərbaycanın siyasi və geosiyasi mövqeyidir. Bakı eyni vaxtda Avropa İttifaqı, Türkiyə, Mərkəzi Asiya, Çin və digər aktorlarla əməkdaşlıq edə bilən, müxtəlif regional platformaları bir-birinə bağlayan ölkədir. Bu xüsusiyyət Azərbaycanı Avropa üçün yalnız enerji və tranzit deyil, həm də geosiyasi tərəfdaş kimi əhəmiyyətli artırır.

Xüsusilə postmüharibə dövründə Cənubi Qafqazda formalaşan yeni reallıqlar Azərbaycanı Avropa üçün daha vacib tərəfdaşa çevirib. Regional kommunikasiyaların açılması, Azərbaycan-Ermənistan sülh gündəliyi, Zəngəzur dəhlizi, Orta Dəhlizin inkişafı və Avropanın Mərkəzi Asiya ilə əlaqələrinin gücləndirilməsi kimi məsələlər Bakının strateji əhəmiyyətini bir qədər də artırır.

### Avropanın təhlükəsizlik və bağlantı xəritəsində yeni strateji mərkəz

Avropanın diqqətini Bakıya yönəldən əsas amillərdən biri də Azərbaycanın irəli sürdüyü sülh və təhlükəsizlik konsepsiyasıdır. Prezident İlham Əliyev ötən dövrdəki çıxışlarında hər zaman bölgədə sülhün formalaşdığını və ən yaxşısının sülh olduğunu bəyan edib. Və son 8 ayda gedən proseslər bir daha göstərdi ki, regionda əbədi sülhün bərqərar olması qaçılmazdır. Bakı Cənubi Qafqazda yalnız münaqişənin nəticələrini aradan qaldırmağa deyil, həm də regionu davamlı sülh, təhlükəsizlik və iqtisadi əməkdaşlıq məkanına çevirməyə çalışır. Bu yanaşma Avropanın mövcud geosiyasi reallıqları fonunda formalaşan yeni ehtiyacları ilə üst-üstə düşür. Prezident İlham Əliyevin verdiyi sülh və təhlükəsizlik, eləcə də əməkdaşlıq mesajları Avropa üçün bir ümiddir.

Səbəbi isə bəllidir - hazırda Avropa üçün təhlükəsizlik anlayışı yalnız hərbi təhlükəsizliklə məhdudlaşmır. Hərbi təhlükəsizlikdən qaynaqlanan enerji təminatının şaxələndirilməsi, alternativ nəqliyyat marşrutlarının yaradılması, ticarət yollarının təhlükəsizliyi və təchizat zəncirlərinin dayanıqlığı da Avropanın strateji gündəliyinin mühüm hissəsidir. Məhz bu məqamda Azərbaycanın coğrafi mövqeyi və həyata keçirdiyi regional siyasət xüsusi əhəmiyyət qazanır. Bakı Şərqlə Qərbi birləşdirən Orta Dəhlizin inkişafında, Xəzər üzərindən keçən nəqliyyat bağlantılarının genişləndirilməsində və enerji marşrutlarının şaxələndirilməsində əsas aktorlardan biridir. Avropa anlayır ki, qlobal qarşıdurmaların dərinləşdiyi bir vaxtda təhlükəsiz və etibarlı ticarət xəttinin mövcudluğu strateji üstünlükdür. Bu mənada Azərbaycanın yaratdığı bağlantı imkanları Köhnə Qitə üçün bir növ "nəfəslik" rolunu oynayır.

Ona görə də Avropanın Bakıya münasibətində enerji amili ilə yanaşı, təhlükəsizliyi təmin edən və Şərqlə Qərb arasında etibarlı körpü formalaşdıran ölkə kimi artan çəkisi də həlledici rol oynayır. Bu faktı ilk dəfə açıq şəkildə dilə gətirən avropalı lider isə Almaniya Federal Kansleri Fridrix Merts oldu. Berlində baş tutan mətbuat konfransında Merts Prezident İlham Əliyevə xitabən "Cənab Prezident, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik bizim üçün də zəruridir. Almaniya və Avropa İttifaqı həmin geosiyasi baxımdan mühüm bölgədə davamlı dincliyə nail olmaqda çox maraqlıdırlar... Bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır. Çox şadam ki, ölkələrimiz arasında münasibətlər yüksələn xətlə inkişaf edir".

### 3500 kilometrlik vahid boru kəməri sistemləri - təbii qazın Avropaya nəqlində əsas arteriya

Yüksələn münasibətlərin ana xətti isə mübahisəsiz olaraq enerji dialoqudur. Hazırki mənzərədə geosiyasi transformasiyalar, qlobal enerji bazarlarında baş verən dəyişikliklər Azərbaycanın strateji əhəmiyyətini Avropa üçün daha da yüksəldir. Ölkənin malik olduğu təbii ehtiyatlar, inkişaf etmiş nəqliyyat infrastrukturu, etibarlı tərəfdaş imici və praqmatik xarici siyasət kursu onu regionun sabitlik və əməkdaşlıq gündəliyinin formalaşdırılmasında əsas iştirakçı kimi ön plana çıxarır. Sirr deyil ki, Aİ tarixinin ən mühüm tranformasiyalarından birini keçməkdədir. Rusiya-Ukrayna müharibəsi, nəticə etibarı ilə qlobal təchizat zəncirlərinin pozulması, enerji bazarlarındakı təlatümlər və bu mənada Aİ-nin özünün enerji təminatını həyata keçirmək üçün yaşadığı çətinliklər köhnə qitənin siyasi gündəminə təsirlər edir. Baş verənlər Avropa İttifaqının yeni beynəlxalq reallıqlar fonunda dayanıqlı inkişaf modeli cızma bilmədiyini göstərdi. Nəticədə Brüssel enerji təhlükəsizliyinin, nəqliyyat bağlantılarının və kritik xammal təchizatının şaxələndirilməsini strateji prioritet elan edərək Avrasiyanın yeni geoiqtisadi xəritəsinə fərqli prizmadan baxmağa başladı. Məhz bu dəyişən geosiyasi mühit Azərbaycanın Avropa üçün əhəmiyyətini keyfiyyətcə yeni mərhələyə yüksəltdi. Əgər uzun illər Azərbaycan Avropa üçün əsasən karbohidrogen ixracatçısı kimi qəbul edilirdisə, bu gün ölkə artıq enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları və Avropa ilə Mərkəzi Asiyanı birləşdirən strateji kommunikasiyaların ayrılmaz hissəsi olaraq qiymətləndirilir. 2022-ci ildə Azərbaycan ilə Avropa Komissiyası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması da məhz bu transformasiyanın siyasi ifadəsi idi. Həmin sənəd Azərbaycanın Avropaya təbii qaz ixracının artırılmasını, enerji əməkdaşlığının dərinləşdirilməsini və bərpaolunan enerji sahəsində yeni imkanların yaradılmasını nəzərdə tutur.

Bu gün Azərbaycan artıq Avropa İttifaqının 10 üzv dövləti də daxil olmaqla, 16 ölkəyə təbii qaz ixrac edir. Ən önəmlisi Azərbaycanın Avropaya qaz ixracı 2022-ci ildən əvvəlki 8 milyard kubmetrdən hazırda 13 milyard kubmetrə yüksəlib və 2027-ci ilədək bu göstəricinin azı 20 milyard kubmetrə çatdırılması planlaşdırılır. Cənub Qaz Dəhlizi isə Xəzər hövzəsini Avropa ilə birləşdirən alternativ enerji arteriyası kimi qitənin enerji təhlükəsizliyi strategiyasının əsas sütunlarından birinə çevrilib. TANAP və TAP kəmərləri Avropanın enerji mənbələrinin şaxələndirilməsi siyasətində xüsusi əhəmiyyət qazanaraq Azərbaycanın qitənin enerji təhlükəsizliyində rolunu daha da gücləndirib. Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin səfəri çərçivəsində baş tutan mətbuat konfransında bildirdi ki, "Bu gün hər ölkə üçün enerji təhlükəsizliyi milli təhlükəsizliyin ən mühüm amilidir. Azərbaycan böyük dərəcədə siyasi səylər qoymuş, diplomatik fəaliyyət aparmış və həmçinin neftimizin, qazımızın nəqli üçün infrastrukturun qurulmasına maliyyə sərmayələri yatırmışdır. Cənub Qaz Dəhlizi ümumi fəaliyyətimizin gözəl nümunəsidir. Bu gün 3500 kilometrlik vahid boru kəməri sistemləri təbii qazın Azərbaycandan Avropaya nəqlində əsas arteriya hesab edilir".

### Fərqli məzmun, fərqli müstəvi - Avropa nəyi başa düşdü?

Amma bu münasibətlər də mühüm yollar keçib. Qeyd olunduğu kimi, Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin səsləndirdiyi mesajlar göstərdi ki, Azərbaycanın Avropa İttifaqı ilə münasibətləri artıq əvvəlki mərhələdən fərqli məzmuna malikdir. Söhbət yalnız enerji əməkdaşlığının genişlənməsindən və ya iqtisadi layihələrin inkişafından getmir. Əsas məsələ ondan ibarətdir ki, Bakı ilə Brüssel arasında münasibətlər getdikcə daha çox qarşılıqlı maraqlar, bərabərhüquqlu əməkdaşlıq və geosiyasi reallıqların qəbul edilməsi prinsipləri üzərində qurulur. Bu isə Azərbaycanın orta güc statusunun Avropa siyasi məkanında da qəbul olunmasının mühüm göstəricisidir.

Bir neçə ildir ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərində əsas prioritet enerji təhlükəsizliyi məsələsidir - yeni gündəm isə həm də qlobal iqtisadiyyatın transformasiyası, alternativ nəqliyyat marşrutlarına artan tələbat, Avropanın strateji təchizat zəncirlərini şaxələndirmək istəyi və Cənubi Qafqazın artan geosiyasi əhəmiyyəti fonunda tənzimlənir.

Şuşa Qlobal Media Forumunda səsləndirilən fikirlərdən biri də məhz bu məntiqi təsdiqləyirdi. Azərbaycan bir daha nümayiş etdirdi ki, beynəlxalq əməkdaşlığın əsas şərti qarşılıqlı hörmət, suverenliyə ehtiram və bərabərhüquqlu tərəfdaşlıqdır. Bakı illərdir vurğulayır ki, Avropa İttifaqı ilə münasibətlər yalnız birtərəfli gözləntilər üzərində deyil, qarşılıqlı maraqlar əsasında inkişaf etməlidir. Hazırkı geosiyasi reallıq göstərir ki, Brüssel də bu yanaşmanın alternativsiz olduğunu qəbul etməyə başlayıb. Bu qəbul isə Azərbaycanın artan siyasi çəkisinin və orta güc statusunun praktik nəticəsidir. Paralel olaraq bu qavrayış Azərbaycanın yerləşdiyi coğrafiyada sabitliyin qorunmasına, iqtisadi inteqrasiyanın genişlənməsinə və əməkdaşlıq platformalarının inkişafına da töhfə verməsi faktını təsdiqləyir. Beləliklə, Şuşa Qlobal Media Forumu Azərbaycanın yeni nizamda güc mərkəzləri ilə münasibətlərinin siyasi konturlarını da müəyyənləşdirdi. Dövlət başçısının mesajları göstərdi ki, Bakı gələcək əməkdaşlığı qarşılıqlı etimad, praqmatik yanaşma və geosiyasi reallıqların düzgün qiymətləndirilməsi üzərində qurmağa hazırdır.

*Pərviz SADAYOĞLU*

# Müharibə cinayətlərinin fəsadları - mina terroru davam edir...

## "Sülhə hazırıq" deyən Ermənistan rəhbərliyi səhih mina xəritələrini niyə gizlədir?

Ötən əsrin səksəninci illərinin sonu-doxsanıncı illərinin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə Azərbaycana qarşı başladığı təcavüzkarlıq müharibəsi təxminən otuz ildən sonra 2020-ci il noyabrın 10-da işğalçı dövlətin tam şəkildə kapitulyasiyasını özündə ehtiva edən üçtərəfli bəyanatın imzalanması ilə yekunlaşsa da, ölkəmiz, xalqımız müharibə cinayətlərinin fəsadlarını bu gün də yaşamaqdadır. Söhbət ilk növbədə Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərdə baş verən mina partlayışlarından gedir.

Bu partlayışlar nəticəsində mülki insanlar xəsarət alır və yaxud həyatlarını itirirlər. Baş Prokurorluğun bu günlərdə yaydığı məlumata əsasən, işğaldan azad edilmiş ərazilərimizi Ermənistanın minalarla çirkləndirməsi nəticəsində Vətən müharibəsi başa çatandan (10.11.2020-ci il tarixdən etibarən) indiyədək 436 nəfər zərər çəkib. Onlardan 73 nəfər həlak olub, 363 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb.

O cümlədən avqust ayında işğaldan azad olunmuş ərazilərdə - Xocavənddə, Ağdərədə və Kəlbəcərdə olmaqla daha bir neçə mina hadisəsi baş verib. Avqustun 13-də Kəlbəcərin Sarıyel kəndində baş verən son mina partlayışı nəticəsində 1953-cü il təvəllüdlü Tərtər rayonunun Qaynaq kənd sakini Süleymanov Kamran Şükür oğlu minalardan təmizlənməmiş ərazidə mal-qara otararkən mina partlayışı nəticəsində xəsarət alıb.

### Dünyada minalarla ən çox çirklənmiş ölkələrdən biri

Təxminən 30 ili əhatə edən işğal dövründə Ermənistan çoxsaylı müharibə cinayətlərinə əl atıb. Belə ki, hətta keçmiş təmas xəttindən uzaqda yerləşən şəhər və kəndlərimiz də qadağan olunmuş uzaq mənzilli silahlardan atəşə tutulub, təbii sərvətlərimiz talanıb, meşələrin qırılması, çayların çirkləndirilməsi ilə ekologiyamıza ciddi ziyan vurulub, tarixi-mədəni abidələrimiz vandalizm əməllərinə məruz qalıb.

Mina terroru isə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi çoxsaylı müharibə cinayətləri sırasında xüsusi yer tutur. Hazırda beynəlxalq təşkilatların da təsdiqlədikləri kimi, Azərbaycan dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasında yer alır. Verilən məlumatlara görə, ermənilər işğal illərində və 44 günlük müharibədən sonra ərazilərimizdə 1 milyondan çox mina basdırıblar. Açınacaqlı haldır ki, insanlar ayaq basdıqları ən ağlagəlməz yerlərdə belə mina partlayışının qurbanlarına çevrilə bilərlər.






Ölkəmizdə mina terrorunun fəsadlarının xüsusilə ağır olması həm də məğlub Ermənistanın minalanmış ərazilərin səhih xəritələrini respublikamıza təqdim etməməsindən qaynaqlanır. Gözənilirdi ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi 44 günlük müharibədən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonra zamanında yol verilən müharibə cinayətlərinin məsuliyyətini bütün ciddiliyi ilə başa düşəcək və minalanmış ərazilərin səhih xəritələrini könüllü şəkildə ölkəmizə təqdim etməyə qərar verəcək. Bu, postmüharibə dönəmində etimad quruculuğu və sülhyaratma prosesinə güclü impuls verərdi. Ancaq belə görünür ki, Ermənistan dövləti və cəmiyyəti belə bir iradədən və xoş niyyətdən uzaqdır. Bəli, postmüharibə dövründə Ermənistan tərəfindən respublikamıza hansısa "xəritələr" təqdim olunub. Ancaq həmin "xəritələr" üzrə axtarışların səmərəlilik göstəriciləri hədsiz dərəcədə aşağı olub. Sual yaranır: Nə üçün "sülhə hazırıq" deyən Ermənistan rəhbərliyi səhih mina xəritələrini gizlədir?

### İntensiv şəkildə davam etdirilən humanitar minatəmizləmə fəaliyyəti

Qalib Azərbaycan işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış sursatlardan təmizlənməsinə müharibə başa çatandan dərhal sonra start verib. Bunsuz bəhs olunan ərazilərdə quruculuq-bərpa işlərinə başlamaq, yaşayış məntəqələrinin məskunlaşdırılmasını həyata keçirmək mümkün olmazdı. . Ölkəmizdə humanitar minatəmizləmə fəaliyyətini Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA), Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, 5 özəl qurum və bir qeyri-hökumət təşkilatı həyata keçirir. Həmin qurumların fəaliyyət istiqamətləri isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını, həmçinin Qazax rayonunun azad olunan kəndlərini əhatə edir.

Verilən məlumatlara əsasən, 2021-2025-ci illər ərzində ümumilikdə 248 min 391,6 hektar ərazi mina və partladılmamış hərbi sursatlardan təmizlənib. Diqqətçəkən mühüm məqamlardan biri ondan ibarətdir ki, ərazilərin minalardan və digər partlamamış sursatlardan təmizlənməsində dinamika ilbəil yüksəlir. 2024-cü ildə mina və partladılmamış sursatlardan təmizlənən ərazilərin ümumi sahəsi 62 min 23,9 hektar təşkil edib. 2025-ci ildə isə əvvəlki illə müqayisədə təmizlənən ərazilərin sahəsi 11,6 faiz və ya 7 min 181,8 hektar artaraq 69 min 205,7 hektara çatıb. Bu, son 5 il ərzində qeydə alınmış ən yüksək nəticədir.

İllər üzrə dinamikaya nəzər salındıqda görünür ki, 2021-ci ildə mina və partladılmamış sursatlardan təmizlənən ərazilərin sahəsi 20 min 164,7 hektar olub. 2022-ci ildə həmin göstərici əvvəlki illə müqayisədə 117,8 faiz və ya 23 min 751,1 hektar artaraq 43 min 915,8 hektara yüksəlib. 2023-cü ildə isə 2022-ci illə müqayisədə 20,9 faiz və ya 9 min 165,8 hektar artım qeydə alınıb, təmizlənən ərazilərin sahəsi 53 min 81,6 hektar təşkil edib.

Minatəmizləyənlərin peşəkarlığı və fədakarlığı sayəsində aşkarlanan minaların sayı da kifayət qədər çoxdur. 2025-ci ildə işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən minatəmizləmə əməliyyatları zamanı 1 861 ədəd tankəleyhinə mina və 4 min 963 ədəd piyadaəleyhinə mina aşkar edilərək zərərsizləşdirilib. Ümumilikdə isə 2021-2025-ci illər ərzində işğaldan azad olunmuş ərazilərdə 20 min 272 ədəd tankəleyhinə mina və 34 min 213 ədəd piyadaəleyhinə mina aşkar edilərək zərərsizləşdirilib.

İşğaldan azad olunmuş ərazilərdə minatəmizləmə fəaliyyəti 2026-cı ilin əvvəlindən də eyni intensivliklə davam etdirilir. ANAMA-dan verilən məlumata görə, azad edilmiş ərazilərdə cari ilin iyul ayında 614 piyada əleyhinə mina, 174 tank əleyhinə mina, 2106 partlamamış hərbi sursat (PHS) aşkarlanıb. Bildirilib ki, ay ərzində 8 012,7 hektar ərazi mina və PHS-lərdən təmizlənib. Azad ərazilərdə avqustun 10-dan 16-dək olan müddətdə isə 25 tank əleyhinə mina, 107 piyada əleyhinə mina, 614 digər partlayıcı hərbi sursat aşkarlanıb və zərərsizləşdirilib.Məlumata əsasən, bir həftə ərzində 1700.4 hektar ərazi minalardan təmizlənib.

### Vətəndaşlara çağırış

İşğaldan azad olunmuş ərazilərdə avqust ayında baş vermiş təhlükəli mina partlayışları ilə bağlı Azərbaycanın müxtəlif dövlət qurumları məlumat yayaraq narahatlıqlarını ifadə ediblər və vətəndaşlara çağırış ünvanlayıblar. Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) son mina partlayışları ilə bağlı "X" sosial şəbəkə hesabında etdiyi paylaşımda bildirilir: "Ardıcıl iki gün. İki mina partlayışı. Üç mülki şəxs yaralanıb. Bu faciəli hadisələr münaqişənin ölümcül irsinin insan həyatını təhlükə altında qoymağa, yenidənqurma işlərinə mane olmağa və məcburi köçkünlərin təhlükəsiz qayıdışını əngəlləməyə davam etdiyini acı şəkildə xatırladır".

ANAMA, DİN və Baş Prokurorluq isə avqust ayında baş verən mina partlayışları ilə bağlı yaydıqları məlumatda bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, mina təhlükəsi işarələrinin göstəricilərinə diqqətlə yanaşmağa, şübhəli əşyalara toxunmamağa, bələd olmadıqları ərazilərə daxil olmamağa, çəpərləmə fəaliyyəti aparılan ərazilərə müdaxilə etməməyə çağırırlar.

İşğaldan azad olunmuş ərazilər hər bir azərbaycanlı üçün son dərəcə əzizdir. Biz uzun illər boyunca o yerlərin həsrəti ilə yaşamışıq. Buna görə də azad ərazilərə getmək, o yerlərin gözəlliyini seyr etmək, torpağını öpüb gözümüzün üstünə qoymaq istəyirik. Bu insani hisslər və duyğulu yaşantılar tam başadüşüləndir. Ancaq mənfur düşmənin əməllərini də unutmamalıyıq, ailəmizi, uşaqlarımızı qorumaq üçün səbrli, ehtiyatlı və müəyyən olunmuş qaydalar çərçivəsində davranmalıyıq.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan Mətbuat Şurası bəyanat yayıb

## Rusiyanın informasiya məkanında Azərbaycana qarşı təhqiramiz fikirlər yolverilməzdir



Rusiyanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycan dövlətinə, xalqına, ölkə rəhbərliyinə və görkəmli şəxsiyyətlərimizə qarşı nalayiq, təhdid xarakterli və təhqiramiz materiallar və fikirlər paylaşılmaqdadır.

Azərbaycan Mətbuat Şurası bununla bağlı bəyanat yayıb.

Bəyanatda bildirilib: "Hesab edirik ki, bu, sivil jurnalistika prinsiplərinə, etik normalara və insani dəyərlərə tamamilə ziddir.

Təəssüf ki, Rusiyanın informasiya məkanında belə hallar ardıcıl şəkildə müşahidə edilir.

Azərbaycan Mətbuat Şurası bu kimi halları Azərbaycanla Rusiya arasındakı ikitərəfli münasibətlərin ruhuna, həmçinin media əlaqələrinə tamamilə zidd hesab edir.

Ayrıca qeyd etmək istərdik ki, Azərbaycan mediası həmişə qonşu ölkələr, o cümlədən Rusiya ilə bağlı məsələlərə həssas münasibəti ilə seçilib, peşə prinsiplərindən kənar fikir və iddialara yer verməyib.

Buna görə də Rusiyanın informasiya müstəvisində belə xoşagəlməz halların yaşanması Azərbaycan ictimaiyyətində dərin təəssüf və əsaslı narazılıq doğurmaqdadır.

Azərbaycan Mətbuat Şurası baş verən halları qətiyyətlə pisləyir. Şura, eyni zamanda, Rusiyanın media ictimaiyyətinə, bütövlükdə cəmiyyətinə müraciət edərək, Azərbaycan-Rusiya media əlaqələrini, ümumən xalqlar arasında dostluq münasibətlərini pozmağa yönəlmiş hallarla bağlı ciddi tədbir görülməsinə çağırır.

Mətbuat Şurası bir daha bəyan edir ki, Azərbaycan dövlətinə, xalqına və onun görkəmli nümayəndələrinə qarşı təhqiramiz fikirlər və təhdid xarakterli iddialar yolverilməzdir.

Rusiya informasiya məkanının sərt qanunvericilik tənzimlənməsi şəraitində belə materialların sistemli şəkildə ortaya çıxması Rusiya Federasiyasının dövlət siyasəti səviyyəsində onların təsdiqinə bərabərdir.

Mətbuat Şurası belə ifadələrə yol verən şəxslərə hüquqi məsuliyyət daşıdıqlarını bir daha xatırladır".

# Azərbaycana qarşı terror çağırışları edən üç Rusiya vətəndaşı beynəlxalq axtarışa verilib




Baş Prokurorluqda Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, milli nifrət və düşmənçiliyin salınmasına, habelə terrorçuluğa açıq çağırışların edilməsi faktları ilə başlanmış cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

Baş Prokurorluğun mətbuat xidməti xəbər verir ki, istintaq zamanı müəyyən olunub ki, Rusiya Federasiyası vətəndaşları - "Moskva 24" telekanalının aparıcısı, jurnalist Knyazev İvan Andreyeviç, Rusiya Federasiyasında siyasi məsləhətçi və media ekspərti kimi özünü təqdim edən Uralov Semyon Sergeyeviç və televiziya jurnalisti və müxbiri kimi fəaliyyət göstərən, Rusiya Federasiyası nəqliyyat nazirinin müşaviri Çadayev Aleksey Aleksandroviç 14 iyul 2026-cı il tarixdə "YouTube" platformasında "Semän Uralov" adlı kanalda yayımlanan "Çistota ponimaniya" verilişində Azərbaycan Respublikasına qarşı zorakı üsulların tətbiq edilməsi, ölkənin konstitusiya quruluşunun zorla dəyişdirilməsi və ərazi bütövlüyünün parçalanması, eləcə də milli nifrət və düşmənçiliyin salınmasına yönələn çağırışlarla çıxış etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, həmin şəxslər 13 avqust 2026-cı il tarixdə qeyd olunan kanalda yayımlanan verilişdə Azərbaycan Respublikasına qarşı zorakı üsullardan istifadə edilməsi, o cümlədən ayrı-ayrı şəxslərin birbaşa fiziki məhvetmə təhlükəsi altında saxlanılması və ünvanlı şəkildə sıradan çıxarılması barədə fikirlər səsləndirərək terrorçuluğa açıq çağırışlar etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-2 (terrorçuluğa açıq çağırışlar), 281.2 (dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.2.1-ci maddələri (milli nifrət və düşmənçiliyin salınması) ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə olunub.

Toplanmış sübutlar əsasında Semyon Uralov, İvan Knyazev və Aleksey Çadayev barələrində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 214-2, 281.2 və 283.2.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilmələri barədə qərarlar qəbul edilmiş, həmin şəxslər Azərbaycan Respublikasının hüdudlarından kənar olduqlarından axtarış elan olunaraq məhkəmənin müvafiq qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

Eyni zamanda, təqsirləndirilən şəxslərin tərəfdaş dövlətlərin ərazisində müəyyən edilərək tutulması və Azərbaycan Respublikasına təhvil olunması məqsədilə aidiyyəti dövlət qurumlarına Baş Prokurorluq tərəfindən müvafiq müraciətlər edilmiş, habelə onların İnterpol kanalları vasitəsilə beynəlxalq axtarışının təşkili istiqamətində zəruri tədbirlər görülüb.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna və ərazi bütövlüyünə qarşı yönəlmiş istənilən qanunsuz əməllərə qarşı milli qanunvericiliyin və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə uyğun olaraq qətiyyətli hüquqi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək.



## Rusiya səfiri Azərbaycan XİN-ə çağırılıb

Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.

XİN-in Mətbuat xidməti idarəsindən bildirilib ki, görüş zamanı son dövrlərdə Rusiya Federasiyasının media və informasiya məkanında Azərbaycan Respublikası, Azərbaycan xalqı və ölkə rəhbərliyi əleyhinə səsləndirilən təxribat, təhqir və təhdid xarakterli açıqlamalarla bağlı Azərbaycan tərəfinin ciddi narahatlığı və qəti etirazı Rusiya tərəfinin diqqətinə çatdırılıb.

Xüsusilə, avqustun 13-də "Çistota ponimaniya" layihəsi çərçivəsində yayımlanan verilişdə ölkəmizə, xalqımıza və Azərbaycan Respublikasının rəhbərliyinə qarşı səsləndirilən ifadələrə diqqət çəkilib.

Bununla yanaşı, avqustun 7-də "Sputnik" radiosunda yayımlanan proqramda Azərbaycan rəhbərliyinin "Rusiyanın terrorçu və ekstremistlər siyahısına" daxil edilməsi ilə bağlı səsləndirilən cəfəngiyyat, avqustun 9-da "YouTube" platformasında, avqustun 16-da isə "Spas" telekanalında Azərbaycanın rəhbərliyinə qarşı yenidən təhqir məzmunlu materialın yayımlanması və təxribatçı fikirlərin səsləndirilməsi xatırlanıb.

Azərbaycan dövlətinin daxili siyasi proseslərinə müdaxilə imkanlarının müzakirə edilməsinin, Azərbaycan xalqına və Azərbaycan rəhbərliyinə qarşı fiziki zorakılıq xarakterli çağırışların səsləndirilməsinin qəbuledilməz olduğu vurğulanıb.

Azərbaycan tərəfinin dəfələrlə sözügedən fəaliyyətlərin qarşısının alınmasına dair çağırışlara və məsələnin müxtəlif siyasi səviyyələrdə müzakirə edilməsinə baxmayaraq, analoji ritorikanın daha sərt formada davam etməsinin ciddi narahatlıq doğurduğu bildirilib.

Görüşdə Rusiyanın informasiya və media məkanında Azərbaycan əleyhinə təxribat, təhdid və zorakılıq ritorikasına son qoyulması məqsədilə təxirəsalınmaz və təsirli tədbirlərin görülməsi barədə gözləntimiz bir daha qarşı tərəfin diqqətinə çatdırılıb.

# Dünya qlobal ərzaq böhranına doğru

Son illərdə dünyanın ərzaq bazarında ciddi narahatlıqlar yaşanmaqdadır. Getdikcə daha çox dərəcədə təklif tələbatı qarşılamır və bu reallıq fonunda qiymətlərdə kəskin artımlar müşahidə olunur. Nəticədə, yüz minlərlə insanın ən zəruri ərzaq məhsullarına əlçatanlığı kəskin şəkildə məhdudlaşır.

Yaşanan qlobal ərzaq böhranı əsas etibarı ilə iki amillə şərtlənir. Bunlardan biri qlobal səviyyədə iqlim dəyişmələrinin intensivləşməsidir. Qlobal istiləşmə quraqlıq, su çatışmazlığı yaradır ki, bu səbəbdən də maldarlıq və bitkiçilik üçün şərtlər çətinləşir.

Dünyanı qlobal ərzaq böhranına aparan digər amil müharibələrdir. Yaxın Şərqdə və Şərqi Avropada uzanan müharibələr təchizat marşrutlarını təhlükəli hala gətirib ki, bunun da kədərli nəticələri lakmus kağızı kimi özünü istehlak bazarlarında büruzə verir. Həmçinin geosiyasi və geoiqtisadi maraqların ifadəsi olaraq tətbiq olunan yüksək rüsumlar da istehlak bazarına ciddi təzyiqlər yaradır.

## Qlobal ərzaq bazarında son 3 ilin rekord qiymətləri

İyul ayında qlobal ərzaq qiymətləri indeksi 0,6 faiz artaraq son üç ildən çox müddətdə ən yüksək səviyyəyə çatıb. Bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) məlumat yayıb.

Bildirilir ki, FAO-nun ərzaq qiymətləri indeksi iyulda orta hesabla 131,1 bənd təşkil edib. İndeks aylıq olaraq 0,6 faiz, illik əsasda isə 1 faiz artıb. Taxıl, şəkər tozu və bitki yağlarının qiymət indekslərindəki artımlar ət və süd məhsulları indekslərindəki azalmalarla qismən kompensasiya edilib.

Taxıl qiymətləri indeksi iyulda orta hesabla 113,8 bənd təşkil edib, iyunla müqayisədə 3,4 faiz, 2025-ci ilin iyul ayı ilə müqayisədə isə 6,9 faiz artıb. Qlobal buğda qiymətləri 5,8 faiz artıb və bir il əvvəlki səviyyədən 9,9 faiz yüksəkdir. Qarğıdalı qiymətləri də iyun ayı ilə müqayisədə 3,6 faiz artıb. Düyü qiymət indeksi iyulda sabit qalıb. Ötən ay bitki yağı qiymət indeksi orta hesabla 195,7 bənd təşkil edib, aylıq olaraq 2 faiz artaraq 2022-ci ilin iyun ayından bəri ən yüksək səviyyəyə çatıb.

Ət qiymət indeksi iyulda orta hesabla 127,7 bənd təşkil edib, iyun ayı ilə müqayisədə 2,8 faiz azalsa da, bir il əvvəlki səviyyədən 0,8 faiz yüksək olub. Süd məhsulları qiymət indeksi orta hesabla 116,2 bənd olub. İndeks iyun ayı ilə müqayisədə 0,7 faiz, illik müqayisədə isə 24,8 faiz azalıb. Kərə yağı qiymətləri 2,4 faiz azalıb. Pendir qiymət indeksi 1,7 faiz artaraq 2025-ci ilin iyul ayından bəri ilk aylıq artımını nümayiş etdirib. Şəkər tozu qiymət indeksi iyulda orta hesabla 95 bənd təşkil edib, iyun ayı ilə müqayisədə 5,6 faiz artsa da, bir il əvvəlki səviyyədən 8 faiz aşağı olub.

Ekspertlərin fikrincə, taxıl, şəkər və bitki yağlarının səbəb olduğu bu artım Qara dəniz taxıl dəhlizi və əsas istehsal bölgələrindəki əlverişsiz hava şəraiti ilə bağlı narahatlıqlar səbəbindən baş verib.

## El-Nino hava hadisəsi daha 49 milyondan çox insanı aclıq riski ilə üzləşdirə bilər

BMT-nin Ümumdünya Ərzaq Proqramı (ÜƏP) xəbərdarlıq edib ki, El-Ninonun güclənməsi 2027-ci ilin sonuna qədər daha 49 milyondan çox insanı kəskin qida çatışmazlığına sürükləyə bilər. Təşkilatın yaydığı məlumatda bildirilir ki, son təhlillərə görə, El-Ninonun aclıqla mübarizə aparan 45 ölkədə qida təhlükəsizliyini əhəmiyyətli dərəcədə pisləşdirəcəyi və kəskin qida çatışmazlığı olan insanların sayını təxminən 225 milyondan 274 milyona çatdıracağı gözlənilir.

ÜƏP-in icraçı direktoru vəzifəsini icra edən Karl Skau açıqlamasında bildirib: "El-Ninonun onsuz da həssas olan milyonlarla insanın qida təhlükəsizliyi üçün böyük bir təhdid olduğu bildirilir". O, daşqınların, quraqlığın və anomal istilərin icmaları böhranın öhdəsindən gəlməkdən tez bir zamanda məhrum edə biləcəyini qeyd edib. Skau əlavə edib ki, ÜƏP artıq səkkiz ölkədə erkən cavab tədbirlərini genişləndirib.

Qeyd olunub ki, El-Ninonun 2026-cı ilin sentyabr-dekabr ayları arasında pik həddə çatacağı gözlənilir, lakin onun təsirləri gələcək məhsul yığımını pozaraq 2027-ci il ərzində davam edəcək. ÜƏP bildirib ki, ən böyük təsirlər Mərkəzi Amerika və Cənubi Afrikada gözlənilir, Şərqi Afrika, Cənubi və Cənub-Şərqi Asiyada da ciddi fəsadlar proqnozlaşdırılır.

Latın Amerikası və Karib dənizi bölgəsində 16 milyondan çox insanın təsirləndiyi ərzaq təhlükəsizliyinin ən kəskin artımlarından biri müşahidə olunacaq. Şərqi və Cənubi Afrikada isə 18 milyondan çox insanın ərzaq təhlükəsizliyi pisləşə bilər.

ÜƏP Asiya və Sakit okean regionunda əlavə 8,2 milyon insanın kəskin qida çatışmazlığı ilə üzləşə biləcəyini, Qərbi və Mərkəzi Afrikada isə ərzaq təhlükəsizliyinin 12 faiz artaraq təxminən 6 milyon insana təsir göstərəcəyini proqnozlaşdırır.

May ayından bəri ÜƏP altı ölkədə - Cənubi Sudan, Çad, Mavritaniya, Uqanda, Qvatemala və El Salvadorda qabaqlayıcı tədbirlər planlarını işə salıb və təxminən 500.000 insana 14 milyon dollardan çox yardım göstərib.



## Rifah məkanı olan Avropa ciddi sınaq qarşısında

Hazırda qlobal istiləşmədən Avropa xüsusi olaraq təsirlənir. Bu coğrafiya artıq xeyli müddətdir ki, ifrat istilərdən və meşə yanğınlarından əziyyət çəkir. Bunun qida məhsulları istehsalına da ciddi mənfi təsirləri var. "Financial Times" nəşrinin "Energy and Climate Intelligence Unit" (ECIU) təşkilatının təhlilinə istinadən yaydığı məlumatda bildirilir ki, iyun ayında qeydə alınan yüksək temperatur Avropada dənli bitkilərin ümumi dəyərinin 2 milyard avrodan çox azalmasına səbəb olub. İsti hava şəraitindən ən çox zərər çəkən ölkələr isə Macarıstan və Fransa olub.

Nəşrin məlumatına görə, yüksək temperatur taxılın yetişməsinin ən həssas dövründə Almaniyanın cənubunda, Fransanın mərkəzi və cənub bölgələrində, həmçinin Polşa, Avstriya və Macarıstandakı buğda sahələrinə ciddi ziyan vurub.

"Energy and Climate Intelligence Unit" təşkilatının torpaq, kənd təsərrüfatı və ərzaq məsələləri üzrə eksperti Tom Lankaster bildirib ki, yaranmış vəziyyət fermerlərin gəlirlərini kəskin azaldacaq, onların maliyyə durumuna ciddi zərbə vuracaq və bütövlükdə Avropanın ərzaq təhlükəsizliyinə təhdid yaradacaq.

Həmçinin Böyük Britaniyada uzun sürən quraqlıqla əlaqədar ölkənin kənd təsərrüfatına ciddi ziyan dəyib. "Sky News"un məlumatına görə, ölkədə arpa, yulaf və raps istehsalının 2026-cı ildə 19,5 milyon tona düşəcəyi proqnozlaşdırılır. Bu, 2020-ci ildə qeydə alınmış 19,8 milyon tonluq minimum göstəricidən də aşağıdır və 1984-cü ildən bəri aparılan rəsmi statistika tarixində ən zəif nəticə ola bilər.

Mütəxəssislər bildirirlər ki, yağıntının kəskin azalması məhsuldarlığa ciddi təsir göstərib. İngiltərə və Uels son 190 ilin ən quraq iyul ayını yaşayıb. Nəticədə Uelsin bütün ərazisi və İngiltərənin təxminən yarısı quraqlıq vəziyyətinə düşüb. Azalan məhsuldarlıq çörək, pivə, səhər yeməyi taxılları və heyvandarlıq yemi istehsalında istifadə olunan əsas xammalın həcminə də mənfi təsir göstərəcək.

Bu vəziyyət ölkənin ərzaq təhlükəsizliyi ilə bağlı narahatlıqları artırıb. Hazırda Böyük Britaniyada istehlak olunan ərzağın təxminən 40 faizi idxal hesabına təmin edilir.

## Afrikada vəziyyət daha ağırdır

Birləşmiş Millətlər Təşkilatının beş agentliyi tərəfindən dərc edilmiş "Dünyada ərzaq təhlükəsizliyi və qidalanmanın vəziyyəti" (SOFI) adlı son hesabatda təqdim olunan göstəricilərdən aydın olur ki, ərzaq təminatı baxımından ən ağır vəziyyət Afrikada və Asiyanın ayrı-ayrı ölkələrindədir.

Hesablamalar göstərir ki, dünya əhalisinin 7,8 faizi və ya təqribən 645 milyon insan 2025-ci ildə aclıqla üzləşib. Afrika isə hazırda aclıqla üzləşən ən çox insana ev sahibliyi edir. 2025-ci ildə bu qitədə təxminən 309 milyon insan kifayət qədər qidalanmayıb, Asiyada isə bu rəqəm 292 milyondur. Afrikada aclıq səviyyəsi 2024-cü ildəki 20,3 faizdən növbəti il 20,0 faizə düşsə də, əhalinin sürətli artımı o deməkdir ki, hazırda mütləq baxımdan ən çox aclıq çəkən insan məhz bu qitədədir. Afrikada əhalinin yarıdan çoxu, yəni 56,6 faizi 2025-ci ildə orta və ya ağır ərzaq çatışmazlığı ilə üzləşib, Asiyada bu rəqəm 20,3 faiz, Latın Amerikası və Karib dənizi regionunda 22,9 faiz, Şimali Amerika və Avropada isə 8,7 faiz təşkil edib.

FAO-nun baş iqtisadçısı Maksimo Torero bildirib ki, Hörmüz boğazı ətrafındakı böhran qida istehsalına, məhsuldarlığa və aclığa təsir göstərəcək. O əlavə edib: "Enerji və gübrə qiymətlərinin artması ilə əlaqəli böhranın qida inflyasiyasına təsirinin müddətindən asılı olaraq, 2030-cu ildə 510 ilə 520 milyon arasında insanın hələ də aclıqla üzləşə biləcəyini güman edirik".

***Mübariz FEYİZLİ***

# "Currency News": Azərbaycanın yenilənmiş 100 manatı: iqtisadiyyat və inkişafın milli ifadəsi

## Nüfuzlu jurnalda yenilənmiş 100 manat barədə məqalə dərc edilib

Nağd pul və valyuta sahəsinin nüfuzlu nəşrlərindən hesab edilən "Currency News" jurnalının iyul sayında Azərbaycanın yenilənmiş 100 manatlıq pul nişanına həsr olunan məqalə dərc edilib.

"Azərbaycanın yenilənmiş 100 manatı: iqtisadiyyat və inkişafın milli ifadəsi" sərlövhəli məqalədə yeni pul nişanının dizaynı, konsepsiyası və müasir mühafizə elementləri barədə ətraflı məlumat verilib.

Nəşr qeyd edir ki, "Müstəqil Azərbaycan" konsepsiyası çərçivəsində hazırlanan 100 manatlıq pul nişanının əsas mövzusu "İqtisadiyyat və inkişaf"dır. Kağız pul nişanının bədii tərtibatında Azərbaycanın iqtisadi inkişafı, texnoloji tərəqqisi, qlobal iqtisadiyyata inteqrasiyası əks etdirilib.

Məqalədə yenilənmiş 100 manatlıq pul nişanında qabaqcıl mühafizə texnologiyalarının tətbiqinə də xüsusi diqqət ayrılıb. Bildirilir ki, yeni dizaynda saxtalaşdırmaya qarşı mühafizənin gücləndirilməsi məqsədilə müasir təhlükəsizlik elementlərindən istifadə olunub.

Mərkəzi Bankın Baş direktoru Rəşad Məmmədov "Currency News"a açıqlamasında milli valyutanın davamlı təkmilləşdirilməsinə xüsusi önəm verildiyini bildirib.

"Qabaqcıl mühafizə texnologiyaları və müasir dizayn həllərinin tətbiqi ilə yenilənmiş 100 manatlıq milli pul nişanlarının müasir vizual kimliyinin gücləndirilməsinə sadiqliyimizi əks etdirir", - deyə Rəşad Məmmədov qeyd edib.

Xatırladaq ki, yeni dizayna və beynəlxalq təcrübədə mövcud olan ən son mühafizə elementlərinə malik 100 manatlıq kağız pul nişanının yenilənmiş versiyası 15 iyul 2026-cı il tarixindən etibarən tədavülə buraxılıb. Yenilənmiş 100 manatın üzərində Mərkəzi Bankın sədri Taleh Kazımovun imzası əks olunur.



Azerbaijan`s Upgraded 100 Manat: a National Expression of Economy and Development

The upgrade was carried out by preserving the main design elements on the banknote and presenting them in a more modern appearance and layout.

The front of the banknote features pathways from old types of buildings up to modern urban skyscrapers and architectural compositions representing development and economic progress. These elements visually represent the transformation of Azerbaijan's cities and infrastructure over recent decades.

The reverse, meanwhile, depicts lines and polygonal elements representing Azerbaijan's traditional carpet patterns, which is overlaid with the map of the country.

Focus on Security

A major highlight of the upgraded design is the introduction of a new RollingStar® LEAD foil stripe with a micro-mirror technology and three-dimensional visual effects. It depicts the modern headquarters building of the CBA, recently constructed in the capital, Baku, symbolising financial stability, institutional modernisation, and

# Ötən 7 ayda...

## Qeyri-neft ixracı 3 dəfəyə yaxın artıb

Ölkə iqtisadiyyatında qeyri-neft sektorunun artım dinamikası ixracın həcm və dəyərinin artmasına da təsir göstərib. Belə ki, 2026-cı ilin yanvar-iyul aylarında iqtisadiyyatda yaradılan 76,8 milyard manat həcmində əlavə dəyərin 53,9 milyard manatı və ya 78 faizi qeyri-neft mənbələrində cəmləşib ki, bu da həmin drayverlərin ixrac hərəkətliliyini artırıb. Bunun nəticəsidir ki, cari ilin 7 ayında qeyri-neft-qaz ixracı rekord təzələyərək 5 milyard 933 milyon 171 min dollara çatıb. Bu, 2025-ci ilin eyni dövrü ilə müqayisədə (həmin dövrdə göstərici 2 milyard 87 milyon 970 min dollar olub) 3 milyard 845 milyon 201 min dollar çoxdur. Beləliklə, qeyri-neft-qaz məhsullarının ümumi ixracdakı payı 13,7 faizdən 30,7 faizə yüksəlib. Yəni, faktiki olaraq ixracın 3-dən biri və ya hər 3 dolların 1 dolları qeyri-neft məhsulllarından ibarətdir.

### Qızıl ixracı rekord həddə çatıb

Qeyri-neft ixracında əsas məhsul qızıl olub, sarı metalın ixrac dəyəri 3,7 milyard dollar təşkil edib. Qızılın çəki həcmi isə 24,52 ton işlənməmiş, yarımişlənmiş və ya toz şəklində olub. Bu məhsul ümumi ixracın 19,2 faizini, qeyri-neft-qaz ixracının isə 62,5 faizini formalaşdırıb. Ötən 7 ayda qeyri-monetar (qızıl nəzərə alınmadan) ixracın dəyəri isə 2,5 milyard dollar olub. Bu, 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 18,3 faiz artım deməkdir. Bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 123 milyon dollar, qeyri-yeyinti məhsullarının ixracı isə 26 faiz artaraq 261,8 milyon dollar təşkil edib.

Cari ilin yanvar-iyul aylarında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 2,6 dəfə, pambıq iplik 81,9 faiz, bitki və heyvan mənşəli piylər və yağlar 39,5 faiz, alüminium və ondan hazırlanan məmulatlar 39,4 faiz, pambıq lifi 24,9 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 23,3 faiz, çay 19,5 faiz, meyvə-tərəvəz 16,4 faiz, spirtli və spirtsiz içkilər isə 3 faiz artıb.

Ümumilikdə, aqrar məhsullar üzrə ixrac 22,1 faiz artaraq 673,4 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 24,8 faiz artaraq 223,1 milyon dollar təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 22,8 faiz artaraq 896,4 milyon dollara bərabər olub.

### "Azərkosmos" ixrac potensialını artırır

Qeyri-neft məhsullarının ixracında Rusiya Federasiyası ilk yeri tutur. Sonrakı yerlərdə Türkiyə, Gürcüstan, İsveçrə, Qazaxıstan və digər ölkələr dayanır. İxracda isə "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti", "Agrarco" MMC, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Prime Lm" MMC, "P-Aqro" MMC, "Khan-El" MMC, "Mors Trading" MMC, "Stp Alüminium" əsas yer tutur. Həmçinin, qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına "Azer-Gold" QSC xüsusi yerə malikdir. Eləcə də "SOCAR POLYMER", "Azəralüminium" MMC, Azərbaycan Respublikası "Azərpambıq" Aqrar Sənaye Kompleksi, "Socar Cape" MMC, "Sənayecihaz" EİM, "İstisu" Mineral Su Zavodu, Qaradağ Şüşə Zavodu da ixracatçıların reytinq siyahısında xüsusi paya malikdir.

Qeyd edilən dövrdə Azərbaycanın kosmik və rəqəmsal məhsullarının ixracında da əhəmiyyətli artım baş verib. Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) tərəfindən dünyanın 33 ölkəsindən olan 90-dək şirkətə 14 milyon dollardan çox telekommunikasiya xidmətləri ixrac edilib. Bu, qurumun formalaşan ümumi gəlirlərinin təxminən 64-65 faizi deməkdir. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan və Misir qərarlaşıb.



Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və əlaqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycanın ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Ticarət Evləri fəaliyyət göstərir.

### "Azexport" - qeyri-neft ixracının elektron platforması...

Azərbaycanın ixrac imkanlarının artmasında "Azexport" portalı da mühüm yer tutur. 10 ilə yaxındır ki, ölkəmizdə istehsal olunan malların vahid elektron məlumat bazası rolunu oynayan portal Azərbaycanda istehsal olunan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda təşviqinə dəstək verir. "Azexport", həmçinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma, sahəsində dəstək göstərir. "Azexport" artıq ixrac sektorunda tərəf kimi xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensiv aparılmasını təmin edən çevik bir struktura çevrilib.

"Azexport" portalının qlobal rəqəmsal ticarət platformalarına inteqrasiyası ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarına da əlverişli mühiti təmin edib. Nəticədə, portal "Made in Azerbaijan" məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsində də böyük rol oynayan resursa çevrilib. "Made in Azerbaijan" brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa başlanılıb. "Azexport" Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyən "Alibaba.com", "eBay.com", "Wholesale", "Amazon", "All.biz" kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub və Azərbaycan məhsullarına beynəlxalq bazarlarda sərfəli potensial alıcı tapmaqda mühüm vasitəçiyə çevrilib.

### İxracatçıların xaricdəki ünvanı - Ticarət Evləri

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib. Eyni zamanda, potensial ixrac bazarları ölkələrində logistika mərkəzlərinin yaradılması və Ticarət Evləri ilə fəaliyyətinin əlaqələndirilməsi istiqamətində görülən işlər də yeni ixrac bazarlarının təşkilində mühüm rol oynmaqdadır.

**E.CƏFƏRLİ**

# Şuşadan başlanan yol yeni mahiyyət qazanır

## Türkiyə Şərq regional güc arxitekturasının da əsas sütunlarından birinə çevrilir



Son illərdə Yaxın Şərq və Avrasiya geosiyasi məkanında baş verən proseslər Türkiyənin regional güc mərkəzi kimi mövqeyinin möhkəmləndiyini göstərir. Ankara artıq öz milli təhlükəsizlik maraqlarını təmin edən dövlət olmaqla yanaşı, regional sabitlik, müdafiə və təhlükəsizlik gündəliyinin formalaşmasına təsir göstərən güc mərkəzi kimi çıxış edir. Türkiyənin artan siyasi, hərbi və diplomatik imkanları böyük dövlətlərin də diqqətindən kənarda qalmır. Əksinə, dəyişən dünya nizamında Ankaranın artan rolunun nəzərə alınması və müəyyən istiqamətlərdə dəstəklənməsi yeni reallığın göstəricisidir.

Bu baxımdan Məkkədə imzalanan Türkiyə-Səudiyyə Ərəbistanı-Pakistan üçtərəfli müdafiə sazişi xüsusi əhəmiyyət daşıyır. Saziş yalnız üç ölkə arasında hərbi əməkdaşlığın genişləndirilməsi kimi qiymətləndirilə bilməz. Bu sənəd Türkiyənin NATO üzvü olmaqla yanaşı, İslam dünyasının aparıcı dövlətləri ilə təhlükəsizlik mexanizmləri qurmaq imkanının göstəricisidir. Ankara bununla Qərb təhlükəsizlik sistemindəki mövqeyini qoruyaraq, eyni zamanda Yaxın Şərq və Cənubi Asiyada yeni əməkdaşlıq platformalarının formalaşmasında iştirak etdiyini ortaya qoyur. Başqa sözlə, bu saziş Qərb-Şərq təhlükəsizlik arxitekturasının müəyyən mənada inteqrasiyası belə sayla bilər.

Məkkə razılaşmasının başqa bir mühüm tərəfi isə Türkiyənin hərbi-sənaye potensialının regional təhlükəsizlik siyasətində çəkisinin artmasıdır. Türk müdafiə sənayesinin əldə etdiyi nəticələr Ankaraya siyasi təsirlə yanaşı, praktiki hərbi imkanlar da qazandırır. Bu proses Türkiyəni müxtəlif güc mərkəzləri arasında əlaqələndirici və balanslaşdırıcı aktora çevirir. Beləliklə, Ankara artıq regiondakı prosesin izləyicisi deyil, yeni təhlükəsizlik arxitekturasının formalaşmasında söz sahibi olan əsas mərkəzlərdən biridir.

### Ankara ilə Vaşinqton arasında telefon danışığı

Bu fikirlərin təsdiqi Ankaranın son günlərdə bir sıra ölkələrlə yaratdığı təmaslarda öz əksini tapır. Yeri gəlmişkən, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə ABŞ Prezidenti Donald Tramp arasında telefon danışığı olub. Telefon danışığı zamanı Türkiyə ilə ABŞ arasında ikitərəfli münasibətlər, habelə regional və qlobal proseslər müzakirə olunub.

Prezident Ərdoğan İranla ABŞ arasındakı gərginlikdə diplomatiyadan maksimum dərəcədə istifadə etməyin vacibliyini, danışıqların davam edəcəyinə ümidvar olduğunu söyləyib.

Türkiyə dövlətinin başçısı rəsmi Ankaranın sülh səylərini dəstəkləməyə davam edəcəyini vurğulayıb.

Prezident Ərdoğan, həmçinin Türkiyənin Pakistan və Səudiyyə Ərəbistanı ilə imzaladığı Birgə Müdafiə Sazişinin regional sabitlik və təhlükəsizliyin təmin edilməsi baxımından "güclü mövqe" nümayiş etdirdiyini bildirib.

Yaxın Şərqdə cərəyan edən proseslərə diqqət çəkən Rəcəb Tayyib Ərdoğan Türkiyənin bölgədə davamlı sülhü və Qəzza zolağının yenidən qurulması istiqamətində atılan addımları dəstəkləməyə davam edəcəyini deyib.

### Tramp dəstəkləyir

Qeyd edək ki, Birgə Müdafiə Sazişi ABŞ tərəfindən də dəstəklənir. Yeri gəlmişkən, ABŞ Prezidenti Donald Tramp Türkiyə, Səudiyyə Ərəbistanı və Pakistanın Məkkə Birgə Müdafiə Sazişini imzalamasından çox məmnun olduğunu bildirib. Tramp sosial media hesabında Məkkə Birgə Müdafiə Sazişi ilə bağlı paylaşım edib. Tramp paylaşımında "Səudiyyə Ərəbistanı, Türkiyə və Pakistanın Məkkə Birgə Müdafiə Sazişini imzaladığını görməkdən çox məmnunam" deyə qeyd edib. O əlavə edib ki, razılaşma Yaxın Şərqin bir araya gəldiyini və ölkələrin özlərini daha effektiv şəkildə müdafiə edə biləcəyini göstərir. ABŞ prezidenti bildirib: "Bu üç ölkənin böyük liderlərini təbrik edirəm. Bu, böyük, cəsarətli və vacib ilk addımdır. İnanılmazdır."

### Türkiyə-ABŞ əməkdaşlığı Yaxın Şərqdə yeni mərhələyə keçir

Ümumiyyətlə, Türkiyə ilə ABŞ arasında Yaxın Şərqdə əməkdaşlığın genişlənməsi regionda formalaşan yeni təhlükəsizlik arxitekturasının mühüm elementlərindən birinə çevrilir. Ankara və Vaşinqtonun regional proseslərdə daha sıx koordinasiyası yalnız ikitərəfli münasibətlərin inkişafı deyil, həm də münaqişələrin siyasi yollarla həlli və sabitliyin təmin olunması baxımından əhəmiyyət daşıyır. Xüsusilə sülh və təhlükəsizlik təşəbbüslərində Türkiyənin ABŞ-la bərabərhüquqlu tərəf kimi iştirakı Ankaranın regional çəkisinin artdığını göstərir.

Türkiyənin NATO üzvü olması, Yaxın Şərqdə geniş diplomatik əlaqələrə, güclü orduya və mühüm iqtisadi imkanlara malik olması onu ABŞ üçün əvəzolunmaz tərəfdaşlardan birinə çevirir. Vaşinqton da anlayır ki, regionda davamlı sülh yalnız hərbi vasitələrlə deyil, regional güclərin prosesə cəlb olunması ilə mümkündür. Bu baxımdan Sülh Şurasında Türkiyənin ABŞ-la eyni masada və bərabərhüquqlu iştirak etməsi simvolik deyil, strateji məna daşıyır.

Bu əməkdaşlıq Ankaranın yalnız regional hadisələrə reaksiya verən ölkə deyil, Yaxın Şərqin gələcək siyasi düzəninin formalaşmasına təsir göstərən güc mərkəzi kimi qəbul edildiyini nümayiş etdirir. Digər tərəfdən, ABŞ üçün Türkiyə Avropa, Qafqaz, Qara dəniz və Yaxın Şərqi birləşdirən geosiyasi körpü olaraq xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, Ankara-Vaşinqton əməkdaşlığının genişlənməsi yeni regional nizamın əsas dayaqlarından birinə çevrilə bilər.

### Şuşa Bəyannaməsindən yeni regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq modelinə

Bakı ilə Ankara arasında 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəltməklə yanaşı, iki ölkənin regional siyasətinin yeni mərhələsinin əsasını qoydu. Bəyannamə ilə formalaşan siyasi, hərbi və təhlükəsizlik xətti sonrakı dövrdə öz coğrafiyasını genişləndirərək yalnız Azərbaycan və Türkiyənin təhlükəsizliyinin təmin olunmasına deyil, daha geniş regionda yeni təhlükəsizlik arxitekturasının yaranmasına təsir göstərməyə başlayır.

Bu prosesin əsas xüsusiyyəti ondan ibarətdir ki, Bakı-Ankara əməkdaşlığında təhlükəsizlik və iqtisadiyyat artıq bir-birindən ayrı istiqamətlər kimi deyil, vahid strateji konsepsiyanın komponentləri kimi çıxış edir. Zəngəzur dəhlizi, Orta Dəhliz, Bakı-Tbilisi-Qars dəmir yolu, enerji layihələri və yeni logistika imkanları Azərbaycan və Türkiyənin regional iqtisadi inteqrasiyasını dərinləşdirir. Bu layihələrin əhəmiyyəti yalnız yükdaşımaların artması və yeni bazarların formalaşması ilə məhdudlaşmır. Onlar həm də regionun geosiyasi dayanıqlığını və təhlükəsizliyini möhkəmləndirən amillərə çevrilir.

Xüsusilə Zəngəzur dəhlizi ətrafında yaranan yeni imkanlar Bakı-Ankara xəttinin strateji əhəmiyyətini daha da artırır. Azərbaycanı Naxçıvan və Türkiyə ilə birləşdirəcək bu bağlantı Şərq-Qərb nəqliyyat xəritəsində yeni imkanlar yaratmaqla yanaşı, türk dünyasının iqtisadi əlaqələrinin gücləndirilməsinə xidmət edir. Orta Dəhlizin inkişafı isə Azərbaycan və Türkiyəni Avropa ilə Mərkəzi Asiya arasında mühüm geoiqtisadi halqaya çevirir. Nəzərə alsaq ki, bu xəttin özəlliklərindən biri Cənub xəttinin də oraya birləşmə imkanı olması və bu ticari yolun Pakistana kimi uzanması perspektividir, bu mənada Türkiyə - Səudiyyə Ərəbistanı - Pakistan arasında imzalanan və qlobal dünya tərəfindən dəstəklənən Birgə Müdafiə Sazişinin əhəmiyyəti daha da artır. Beləliklə, Şuşa Bəyannaməsi ilə başlayan siyasi-hərbi müttəfiqlik tədricən daha geniş strateji platformaya çevrilir. Bu platformada müdafiə və təhlükəsizlik mexanizmləri iqtisadi layihələrin davamlılığını təmin edir, iqtisadi inteqrasiya isə təhlükəsizlik əməkdaşlığının geosiyasi dayaqlarını gücləndirir. Başqa sözlə, Bakı-Ankara əməkdaşlığının yeni, Yaxın Şərq modeli iqtisadi transformasiyanı təhlükəsizliklə, təhlükəsizliyi isə regional bağlantı və inkişafla birləşdirir.

**P.SADAYOĞLU**

# Vannacci fenomeni: İtaliyada nə baş verir və Avropanın sağa dönüşü nə deməkdir?

əvvəli ötən sayımızda

## Əslində, məsələ Vannaccidə deyil

Burada daha mühüm bir məqam var: Vannaccinin uğurunu yalnız onun xarakteri, çıxışları və sərt fikirləri ilə izah etmək olmaz, çünki oxşar proses Avropanın başqa ölkələrində də gedir. Fransada, Almaniyada, Niderlandda, Avstriyada, İsveçdə və digər ölkələrdə sağ və millətçi partiyalar əvvəlki illərlə müqayisədə daha çox səs toplayır. Az əvvəl aparılmış bir mötəbər araşdırmanın nəticəsinə görə, son milli seçkilərdə Avropa ölkələrində seçicilərin 23 faizindən çoxu ifrat sağ partiyalara səs verib. On il əvvəl bu göstərici təxminən 10 faiz idi. Belə rəqəmlərə sadəcə statistik məlumat kimi baxmaq olmaz. Bu, Avropa cəmiyyətində ciddi dəyişiklik baş verdiyini göstərir. İnsanların bir hissəsi əvvəlki siyasi sistemdən razı deyil. Onlar miqrasiya siyasətindən narazıdırlar. Bəziləri Avropa İttifaqının həddindən artıq gücləndiyini düşünürlər, digərləri öz milli mədəniyyətlərinin və ənənələrinin sürətlə dəyişməsindən narahatdırlar. Başqa bir qrup isə iqtisadi problemlərə görə hakim partiyaları günahlandırır. Bütün bu narazılıqlar bir yerdə toplananda yeni siyasi qüvvələr üçün böyük imkan yaranır.




## İnsanlar niyə əvvəlkitək səs vermirlər?

Avropada uzun illər iki böyük siyasi istiqamət aparıcı rol oynayıb: sosial-demokrat və mərkəz-sol qüvvələr bir tərəfdə, mühafizəkar və mərkəz-sağ qüvvələr digər tərəfdə. Son illər isə bu bölgü əvvəlki qədər işlək görünmür, çünki seçicinin gündəlik həyatı dəyişib: miqrasiya artıb, iqtisadi problemlər yaranıb, enerji qiymətləri yüksəlib, müharibə Avropanın təhlükəsizlik anlayışını dəyişib. Avropa İttifaqının qərarları ilə milli hökumətlərin qərarları arasında mübahisə yaradan təzadlar artıb. İnsanlar sosial şəbəkələr vasitəsiylə əvvəlkindən daha çox məlumat alır, siyasi liderlərlə birbaşa əlaqə qururlar.

Belə vəziyyətdə seçici əvvəlki kimi yalnız böyük partiyaların televiziya çıxışlarına baxaraq qərar vermir. Bir siyasətçi sosial şəbəkədə bir neçə dəqiqəlik çıxışla milyonlarla insana yetişə bilir. Vannacci də məhz bundan yararlanır. Onun sərt danışıq tərzi, mübahisəli fikirləri və özünü "siyasi sistemin qaydalarından qorxmayan adam" kimi təqdim etməsi müəyyən insanlar üçün cəlbedicidir.

Avropada mübarizə indi yalnız sol və sağ arasında getmir, sağın öz daxilində də ciddi mübarizə başlanıb. Bir tərəfdə daha klassik, Avropa İttifaqı ilə əməkdaşlığa hazır, iqtisadi məsələlərdə daha praqmatik mühafizəkarlar dayanır, digər tərəfdə isə daha sərt millətçi, daha çox milli suverenlik tələb edən, miqrasiyanın ciddi şəkildə məhdudlaşdırılmasını və Brüsselin səlahiyyətlərinin azaldılmasını istəyən qüvvələr var. Vannacci ikinci istiqamətin sərt nümayəndələrindən biridir. Bu səbəbdən onun yüksəlişi Meloni üçün həm təhlükə, həm də xəbərdarlıqdır. Baş nazir Vannaccinin seçicilərini geri qazanmaq üçün daha sərt siyasət yürüdə bilər.

Amma bu halda da Vannacci deyə bilər ki, hakimiyyət mənim söylədiklərimi təkrarlayır. Meloni daha mərkəzçi mövqe tuta bilər, bu halda isə Vannacci onun sağındakı seçiciləri öz ətrafında toplamağa çalışacaq. Yəni hansı istiqamətə yönəlməsindən asılı olmayaraq Meloninin qarşısında yeni siyasi rəqabət meydanı açılır.

Bəs bütün Vannacci seçiciləri radikaldırmı? Xeyr. Bu məsələdə diqqətli olmaq lazımdır. Radikal sağ partiyaya səs verən hər bir insanı radikal adlandırmaq düzgün olmaz. Bir seçici yalnız miqrasiya siyasətinə görə belə partiyaya səs verə bilər; başqası hakimiyyətdən narazıdır, ona görə də yeni partiyanı sınamaq istəyir; üçüncü biri Avropa İttifaqının siyasətindən narazıdır; dördüncü isə sadəcə siyasi sistemdə dəyişiklik istəyir. Deməli, Vannaccinin seçicilərinin davranışını yalnız ideologiya ilə izah etmək mümkün deyil, burada narazılıq da böyük rol oynayır. İnsanların bir hissəsi özünü siyasi sistemdə kifayət qədər təmsil olunmuş saymır. Onlar deyirlər ki, bizim rastlaşdığımız problemlər haqqında siyasətçilər açıq danışmırlar. Vannacci məhz həmin boşluğu doldurur.

## Miqrasiya məsələsi niyə bu qədər vacibdir?

Vannacci kimi siyasətçilərin güclənməsində miqrasiya probleminin xüsusi rolu var, çünki miqrasiya yalnız sərhəd məsələsi deyil. Bu məsələ iş yerlərinə, mənzil qiymətlərinə, sosial xidmətlərə, təhlükəsizliyə, məktəblərə, səhiyyəyə, şəhərlərin görünüşünə və insanların öz ölkələrinin gələcəyi barədə düşüncələrinə qədər uzanır. Məhz buna görə miqrasiya mövzusu siyasətə çox güclü təsir göstərir. Bir insan iqtisadi problemdən narahat olar, amma bu narahatlığı miqrasiya məsələsi ilə əlaqələndirə bilər. Başqa biri mədəni dəyişiklikdən narahat ola bilər, digəri isə sərhədlərin kifayət qədər qorunmadığını düşünə bilər. Radikal sağ partiyalar bütün bu narahatlıqları bir siyasi şüar altında birləşdirə bilir. Vannaccinin gücü də müəyyən qədər buradan gəlir.

## Avropa üçün təhlükə, yoxsa demokratik rəqabət?

Burada daha bir vacib sual ortaya çıxır: radikal sağın yüksəlişini Avropa demokratiyası üçün təhlükə saymaq lazımdırmı?

Bu suala birmənalı cavab vermək çətindir. Demokratiyada insanların istədikləri siyasi qüvvəyə səs vermək hüququ var. Əgər bir partiya qanun çərçivəsində fəaliyyət göstərir, seçkilərdə iştirak edirsə, onun seçicilərinin mövcudluğu siyasi sistemin bir hissəsidir. Amma siyasi qüvvələrin hansı dəyərləri müdafiə etdiyinə də diqqət yetirmək lazımdır. Əsas məsələ fikir ayrılığının mövcudluğu yox, siyasi mübarizənin hansı çərçivədə aparılmasıdır. Əgər siyasi rəqabət seçicilərin real problemləri ətrafında mübahisə şəklində gedirsə, demokratiya bundan güclənə bilər; yox, əgər cəmiyyətdə düşmənçilik, ayrı-seçkilik və zorakılıq təşviq edilirsə, vəziyyət tamam başqa xarakter alır. Ona görə başlıca məsələ radikal sağın mövcudluğunu qadağan etmək yox, bu qüvvələrin güclənməsinə səbəb olan sosial-siyasi problemləri anlamaqdır.

Vannaccinin yüksəlişindən yalnız Vannacci haqqında nəticə çıxarmaq böyük səhv olardı. Ənənəvi siyasi partiyalar özlərinə başqa sual verməlidir: niyə insanlar yeni və sərt danışan siyasətçilərə üz tuturlar? Əgər seçici özünü eşidilməmiş hiss edirsə, bundan yaranan siyasi boşluğu kimsə dolduracaq. Əgər insanlar sərhədlərin qorunmasını tələb edirlərsə, bu tələbata cavab verən siyasi qüvvə ortaya çıxacaq. Əgər xalq milli maraqların daha güclü qorunmasını istəyirsə, bu istəyi ifadə edən siyasətçi də meydana çıxacaq. Bu məsələləri uzun müddət görməzliyə vurmaq həmin problemləri aradan qaldırmır, əksinə, siyasi boşluğu daha sərt qüvvələrin doldurmasına şərait yaradır.

Vannaccinin gələcəkdə İtaliyanın ən böyük siyasi liderlərindən birinə çevrilib-çevrilməyəcəyini bu gün heç kim dəqiq deyə bilməz. Onun partiyası böyüyə də, zəifləyə də bilər, Meloni ilə rəqabət apara da bilər, hətta gələcəkdə hansısa koalisiyanın tərkibinə daxil ola da bilər. Bütün bunlar zamanı gələndə məlum olacaq. Amma bir şey artıq aydındır: Vannacci fenomeni yalnız Vannacciyə bağlı deyil, bu, Avropada insanların siyasətdən nə gözlədiyini göstərən bir işarədir. İnsanların bir hissəsi daha güclü dövlət istəyir, bir qismi sərhədlərin daha ciddi qorunmasını istəyir. Bir hissə milli kimliyin qorunmasına böyük əhəmiyyət verir, başqa bir hissə Avropa İttifaqının gələcəkdə hansı rolu oynayacağını yenidən dəyərləndirmək istəyir. Bu kimi neçə-neçə tələbata ənənəvi partiyalar cavab verməsə, onları yeni partiyalar ödəyəcək. Vannacci də məhz bu siyasi boşluqda meydana çıxıb.

## Vannacci fenomeninin başlıca dərsi

Avropanın qarşısında indi çox maraqlı, eyni zamanda çətin seçim dayanır. Bir tərəfdə illərdir formalaşmış siyasi system, digər tərəfdə həmin sistemdən narazı qalan və dəyişiklik tələb edən milyonlarla insan var. Bu iki tərəf arasında məsafə böyüdükcə Vannacci kimi siyasətçilərin meydana çıxması təəccüblü olmayacaq. Ona görə də Vannaccinin yüksəlişinə yalnız "İtaliyada daha bir sağçı siyasətçi ortaya çıxdı" kimi baxmaq məsələnin mahiyyətini kiçiltmək olar. Əsl məsələ İtaliyada bir generalın siyasətə gəlməsi deyil, məsələ ondadır ki, Avropada seçicinin bir hissəsi artıq əvvəlki siyasi cavablarla kifayətlənmir. Bu narazılıq düzgün başa düşülməsə, siyasi mənzərə daha çox dəyişəcək. Ənənəvi partiyalar seçicinin suallarına real cavablar verməsə, həmin suallara daha sərt cavab verənlər meydana çıxacaq.

Vannacci artıq həmin qapını açıb. İndi başlıca sual onun nə qədər böyüyəcəyi yox, Avropanın bu siyasi dəyişiklikdən hansı nəticəni çıxaracağıdır.

***Kəramət Qənbərov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, Beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı***

# 3 aydan sonra...

## Ermənistan KTMT-dən rəsmən çıxacaqmı?

### Təşkilat İrəvana noyabra qədər vaxt verdi

Bir neçə ildir ki, davam edən Ermənistan - KTMT müəmması sona çata bilər. Belə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Baş katibi Taalatbek Masadıkov Ermənistanın təşkilatda gələcək iştirakı ilə bağlı rəsmi İrəvana çağırış edib. Masadıkov Ermənistanın KTMT-dəki fəaliyyət perspektivləri ilə bağlı yekun qərarın "ağlabatan müddətdə qəbul edilməli olduğu" mövqeyindən çıxış etdiklərini bəyan edib.

Həmin müddətin bitməsinə isə cəmisi 3 ay qalır. İrəvanın KTMT-də səsvermə hüququ məsələsinin noyabrda keçiriləcək sammitdə müzakirəyə çıxarılma ehtimalı böyükdür. Məsələ məhz noyabrın 11-də Moskvada dövlət başçıları səviyyəsində keçiriləcək KTMT Kollektiv Təhlükəsizlik Şurasının sammitində gündəmə gətiriləcək. Xatırladaq ki, Ermənistan faktiki olaraq KTMT-nin bütün strukturlarında iştirakını dondurub. İrəvan bu addımını 2022-ci ilin sentyabrında Azərbaycan-Ermənistan sərhədində baş vermiş hərbi toqquşmalar zamanı müttəfiqlərinin müqavilə öhdəliklərini yerinə yetirmədiyi iddiası ilə əsaslandırır. 2024-cü ildən isə İrəvan qurumun heç bir hərbi təlimlərində iştirak etmir, toplantılarına qoşulmur, üzvlük haqqı ödəmir.

### Rusiya "top"u İrəvana atır

Qeyd edək ki, Ermənistanın KTMT ilə münasibətlərindəki eniş həm də İrəvanın seçdiyi Qərbə inteqrasiya yolu ilə də əlaqələndirilir. Təsadüfi deyil ki, son bir ildə Rusiya və Ermənistan rəsmiləri arasında keçirilən bütün təmaslar xüsusi gərginliyi ilə seçilir. KTMT məsələsində isə Rusiya tərəfi "günahı" özündə görmür - əksinə, Ermənistanı ittiham edir. Rəsmi Moskva İrəvanın iddiasını manipulyasiya sayır və köhnə müttəfiqlərindən aralanmaq üçün bəhanə sayır. Bir müddət öncə Rusiyanın KTMT-dəki daimi nümayəndəsi Viktor Vasilyev bildirmişdi ki, qurum ilə Ermənistan arasında heç bir münaqişə yoxdur. "Bunun 2021-ci ildən bəri davam etdiyi iddialar da kökündən yanlışdır. Uzun illərdir ki, bu regional təşkilat daxilində də Qarabağ məsələsinin sülh yolu ilə həlli üçün səylər göstərilib. Bu münaqişə KTMT-nin mandatı ilə əlaqəli deyildi və İrəvan bunu çox yaxşı başa düşür", - deyə o qeyd edib. Vasilyev həmçinin əlavə edib ki, Moskva iki xalqın bir-biri ilə əlaqəli həyatını və taleyini təkcə onilliklər boyu deyil, həm də əsrlər boyu nəzərə alaraq Rusiya ilə Ermənistan arasında dostluq münasibətlərini qorumaq istəyir. O qeyd edib ki, "KTMT-yə üzv olan digər dövlətlərin də öz maraqları və Ermənistan Respublikası ilə öz münasibətləri var".



Ermənistan 1992-ci ilin mayında Rusiya, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanla birgə Kollektiv Təhlükəsizlik Müqaviləsini imzalayan dövlətlər sırasındadır. Məhz bu müqavilə əsasında 2002-ci ildə KTMT yaradıldı. Ölkənin qurumun işindəki fəaliyyəti o qədər də nəzərəçarpacaq dərəcədə deyil - yəni, ordusunun sayı və ya gücü bu təşkilatda xüsusi yer tutmağa imkan vermir. Büdcəsinin məhdud olması isə ölkənin uzun illər özünə "müttəfiq" saydığı dövlətlərdən işlənmiş və ya köhnə silahları alması ilə nəticələnib. O ki qaldı üzvlük haqqına İrəvan burada da simvolik rəqəmlərlə özünü "xilas" etməyi bacarıb.

Qeyd edək ki, 2024-cü ildə Nikol Paşinyan ölkəsinin KTMT-dəki fəaliyyətini dondurduğunu bəyan etsə də, Ermənistan ordusu təşkilatın hərbi strukturundan hüquqi baxımdan çıxarılmayıb. Məsələn, KTMT-nin

### Ermənistan kimə lazımlır: KTMT-yə, yoxsa...

rəsmi saytında Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi təşkilatın Hərbi Komitəsinin üzvü kimi göstərilir. Bu, Ermənistan ordusunun KTMT-də formal olaraq ən yüksək hərbi təmsilçilik səviyyəsində olduğunu göstərir.

Hərbi ekspertlər Ermənistanın KTMT-dəki fəaliyyətinin dondurulmasının hüquqi aspektlərini fərqli rakurslarla izah edirlər. Onların fikrincə, Ermənistanın "KTMT-də iştirakımı dayandırıram" deməsi ilə təşkilatdan çıxması eyni şey deyil - KTMT Nizamnaməsinin 20-ci maddəsinə görə üzv dövlət Nizamnamənin və təşkilatın qərarlarının tələblərini yerinə yetirmədikdə, KTMT-nin Şurası həmin dövlətin təşkilat orqanlarının fəaliyyətində iştirakını dayandıra bilər. Davamlı pozuntu halında isə üzvlükdən çıxarılma məsələsi qaldırıla bilər. Amma Nizamnamədə "üzv dövlət özü birtərəfli qaydada fəaliyyətimi dondururam və üzvlük öhdəliklərimi yerinə yetirmirəm" formasında xüsusi "dondurma" mexanizmi yoxdur. Bu mənada, Ermənistanın hazırkı vəziyyəti hüquqi baxımdan belə xarakterizə oluna bilər - Ermənistan KTMT-dən çıxmayıb; təşkilatda iştirakını siyasi olaraq dayandırıb və faktiki olaraq fəaliyyətsiz üzvə çevrilib.

O ki qaldı, Rusiyanın İrəvanı ciddi-cəhdlə qurumda saxlamaq istəyinə, siyasi analitiklər burada da bəzi məqamları önə sürürlər. Belə ki:

- Ermənistan Rusiya ilə qurumun üç dini cəhətdən eynidinli ölkəsindən biridir;
- Ermənistan Rusiyanın cənub sərhəddi üçün hava-su kimi vacib xarakter daşıyır;
- Ermənistan hərbi baza olaraq Rusiya üçün mühüm əhəmiyyətə malikdir.

Başqa sözlə, Rusiya anlayır ki, Ermənistanın itiriləcəyi təqdirdə KTMT yaradılan zaman müəyyənləşdirilən hədəfdən yayınacaq - qurum Rusiyanın hərbi doktrinasının reallaşmasına xidmət göstərməyəcək. Onsuz da Rusiya-Ukrayna müharibəsinin fonunda KTMT üzvü olan ölkələrin əksəriyyətinin mövqeyi Rusiyadan fərqlənir. İndiki halda isə Ermənistanın da itirilməsi KTMT-ni anti-Rusiya birliyinə də çevirə bilər...

### Ermənistan cəmiyyətinin münasibəti yekcins deyil...

Ermənistanın KTMT-dəki gələcəyi ilə bağlı ölkə daxilində də münasibət fərqlidir. Məsələn, Ermənistan parlamentinin "Vətəndaş Müqaviləsi" fraksiyasından olan üzvü Sarqis Xandanyan bildirib ki, "Bizi KTMT-də iştirakımızı artırmağa məcbur edə biləcək heç bir səbəb və ya hal yoxdur".

Hakim Mülki Müqavilə fraksiyasından olan başqa bir deputat Artur Ovannisyan isə bildirib ki, "Ermənistan müzakirələr aparıldıqdan və qərarlar qəbul edildikdən sonra ölkənin KTMT-dən çıxarılması məsələsi ilə bağlı mövqeyini bildirəcək. Hazırda belə bir qərar yoxdur. Hazırkı qərarımız KTMT üzvlüyünü dondurmaqdır və yaranan problemlərin hələ də həll olunma şansının qalmasına ümid edirik. Əks təqdirdə, biz Ermənistanın milli maraqlarına uyğun hərəkət edəcəyik".

Respublika Partiyasının İcra Orqanının üzvü Eduard Şarmazanov isə deyib ki, Ermənistanla KTMT arasındakı uçurum heç bir tərəfin maraqlarına uyğun deyil. O, Ermənistanın KTMT-dəki aktiv üzvlüyünün tərəfdarı olduğunu deyərək KTMT-dəki tərəfdaşlarının Ermənistan cəmiyyətinin suallarına cavab verməli olduğunu söyləyib.

***P.İsmayılov***

# Latviya və Ukrayna Avropaya nə öyrədir

## Keçmişi xatırlamaq Avropanın təhlükəsizliyi üçün niyə vacibdir?

Avropada elə məsələlər var ki, onları yalnız bu gün baş verən hadisələrə baxmaqla başa düşmək mümkün deyil. Tarix və xalqın yaddaşı da belə məsələlərdəndir. Kənardan baxanda dövlətlərin keçirdiyi anım günləri adi mərasim kimi görünə bilər. Rəsmilər çıxış edir, şəhidlərin və qəhrəmanların xatirəsi yad olunur, gül qoyulur, tədbirlər keçirilir. Sonra həyat öz axarı ilə davam edir. Amma müharibələrdən, siyasi qarışıqlıqlardan və dövlət qurmaq uğrunda mübarizədən keçmiş ölkələr üçün belə günlərin mənası daha böyükdür. Bu tarixlər xalqa bir şeyi xatırladır: bu dövlət hansı çətinliklər hesabına qurulub və onu qorumaq niyə vacibdir?

Bu baxımdan Latviya və Ukraynanın təcrübəsi xüsusilə maraqlıdır. 11 avqust Latviyada müstəqillik uğrunda mübarizə aparanların xatirə günüdür. Bu tarix 1920-ci ildə Latviya ilə sovet Rusiyası arasında imzalanmış Riqa sülh müqaviləsi ilə bağlıdır. Həmin müqavilə Latviyanın müstəqillik müharibəsinin başa çatmasını təmin etdi. Amma "sülh müqaviləsi" sözlərinin arxasında böyük bir tarix dayanır. Latviyanın müstəqilliyi yalnız bir sənədin imzalanması ilə əldə olunmayıb, bundan əvvəl silahlı mübarizə, siyasi qarışıqlıq, mürəkkəb beynəlxalq vəziyyət və yeni dövlətin müstəqil yaşamaq hüququnu sübut etmək üçün aparılan mübarizə olub. Ona görə də 11 avqust Latviyada sadəcə təqvimdə olan bir tarix deyil. Kiçik bir ölkə üçün müstəqillik sadəcə hüquqi anlayış da deyil. Müstəqillik o deməkdir ki, xalq öz gələcəyini özü müəyyən edir, öz dövlət qurumlarına sahib olur, öz ərazisini qoruyur, öz siyasi yolunu seçir. Buna görə də müstəqillik uğrunda mübarizə aparan insanların xatirəsini yaşatmaq təkcə tarix dərsi deyil, bu gün yaşayan nəsil üçün də bir mesajdır.

### Tarixi bir günə sığdırmaq olmaz

Birinci Dünya müharibəsindən sonra Latviyanın yaşadığı hadisələr göstərir ki, XX əsrin əvvəllərində Avropada vəziyyət necə qarışıq olub. Köhnə imperiyalar dağılır, yeni dövlətlər yaranırdı. Müharibələr gedir, müxtəlif siyasi qüvvələr hakimiyyət və təsir uğrunda mübarizə aparırdı. Diplomatiya ilə müharibə eyni vaxtda gedirdi, sülh danışıqları aparıldığı halda cəbhələrdə döyüşlər ara vermirdi. Yeni dövlətin gələcəyi yalnız başqa ölkələrin onu tanımasından asılı deyildi, həmin dövlətin öz xalqının və dövlət qurumlarının çətinliklər qarşısında möhkəm dayanması da vacib idi. Ona görə Latviyanın tarixi yaddaşı yalnız Riqa sülh müqaviləsinin imzalandığı gündən ibarət deyil. Bu yaddaşda müstəqillik uğrunda döyüşən insanlar, müharibədə baş verənlər, verilən siyasi qərarlar və dövlət qurmaq üçün ödənən ağır qiymət də var. Burada bütün Avropa üçün vacib bir sual ortaya çıxır: cəmiyyət sülhün və müstəqilliyin hansı qiymətə başa gəldiyini unutsa, nə baş verə bilər? Cavab düşündürücüdür.

Əgər yeni nəsil təhlükəsizliyi adi və həmişə olacaq bir vəziyyət kimi qəbul etsə, onu hansı təhlükələrin poza biləcəyinə diqqət yetirməyə bilər. Əgər insanlar müstəqilliyin həmişəlik təmin olunduğunu düşünsələr, dövlət institutlarının və beynəlxalq müttəfiqlərin əhəmiyyətini lazımınca qiymətləndirməyə bilərlər. Tarix yaddaşdan silindikcə keçmişdə buraxılmış siyasi səhvlər başqa formada təkrarlanır.

### Yaddaş yalnız keçmiş demək deyil

Yaddaşa çox vaxt mədəni məsələ kimi baxılır. Əslində isə yaddaş siyasət və təhlükəsizliklə birbaşa bağlıdır. Müharibəni xatırlayan xalq sülhün qiymətini daha yaxşı bilir. Müstəqillik uğrunda mübarizəni xatırlayan cəmiyyət dövlətin suverenliyinə qarşı təhlükələrə başqa gözlə baxır. İnsan itkilərini unutmayan toplum müharibə və sülhlə bağlı qərarlara daha məsuliyyətlə yanaşır. Amma burada bir sərhəd də var. Tarixi yaddaşdan insanları bir-birinə qarşı qoymaq və ya siyasi təbliğat aparmaq üçün istifadə edilməməlidir. Yaddaş nifrət yaratmamalıdır, əksinə, insanları düşündürməlidir, təkcə qələbələri yox, itkiləri də xatırlatmalıdır, təkcə qəhrəmanlıqdan yox, siyasi qərarların hansı ağır nəticələrə səbəb ola biləcəyindən də danışmalıdır. Təkcə keçmişdəki qarşıdurmanı xatırlamaq yox, gələcəkdə baş verə biləsi yeni münaqişənin qarşısını necə almaq barədə düşünmək də lazımdır. Əslində sağlam tarixi yaddaşın mənası da budur - keçmişlə yaşamaq yox, keçmişdən dərs götürüb bu gün üçün daha düzgün qərarlar vermək. Latviyanın anım günü XX əsrin əvvəllərindəki müstəqillik mübarizəsi ilə bağlıdır. Ukraynada isə vəziyyət başqadır. 29 avqust Ukraynada həlak olmuş müdafiəçilərin xatirə günüdür. Bu gün ölkənin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyarkən həyatını itirmiş insanların xatirəsinə həsr olunub. Ukrayna üçün bunlar uzaq keçmiş deyil, söhbət yaxın tarixdən gedir. Məhz buna görə həmin günün Ukrayna cəmiyyətində emosional və siyasi təsiri böyükdür. Bu tarixdə 2014-cü ilin avqustunda baş vermiş İlovaysk faciəsi xüsusi yer tutur. İlovaysk həmin müharibənin ən ağır hadisələrindən biri olub. Döyüşlər nəticəsində çoxlu ukraynalı hərbçi həlak olub və bu hadisə Ukrayna xalqının yaddaşında dərin iz buraxıb. Amma 29 avqust yalnız İlovaysk döyüşü ilə bağlı deyil, bu tarix minlərlə insanın taleyini özündə birləşdirir: evə qayıtmayan əsgərlər, yaxınlarını itirən ailələr, atasız böyüyən uşaqlar, müharibənin ağır nəticələrini bu gün də ömründə daşıyan insanlar... Bütün bunlara görə həlak olmuş müdafiəçilərin xatirəsi artıq Ukraynanın bugünkü siyasi və milli kimliyinin bir hissəsinə çevrilib.

Tarix yenidən qarşımıza çıxanda Ukraynanın təcrübəsi Avropaya narahat bir sual verir: müasir Avropa dövləti yenidən öz varlığı üçün ciddi təhlükə ilə üzləşə bilərmi? Soyuq müharibə başa çatandan sonra çoxları belə düşünürdü ki, Avropada böyük müharibələr artıq keçmişdə qalıb. Qitə ölkələri bir-birinə daha sıx bağlanmışdı, iqtisadi əlaqələr güclənmişdi, beynəlxalq təşkilatlar inkişaf etmişdi. Bütün bunlar böyük müharibə ehtimalını azaldırdı. Amma son illərin hadisələri göstərdi ki, buna həddindən artıq arxayın olmaq təhlükəlidir. Ukraynada müharibə Avropanın gündəliyinə əvvəllər həll olunmuş hesab edilən bir çox məsələləri yenidən qaytardı: sərhədlər, ərazi bütövlüyü, müdafiə, hərbi ittifaqlar, enerji təhlükəsizliyi, dövlət institutlarının möhkəmliyi... Məhz buna görə Ukraynanın həlak olan müdafiəçiləri ilə bağlı yaddaş yalnız Ukrayna üçün əhəmiyyət daşımır, bu yaddaş bütün Avropa üçün vacibdir. Çünki "suverenlik", "ərazi bütövlüyü" və "müstəqillik" sözləri sadəcə hüquqi terminlər deyil, bu sözlərin arxasında insanlar, ailələr, bütöv xalqlar dayanır.



### Təhlükəsizliyə bütün ölkələr eyni gözlə baxmır

Müasir Avropanın əsas problemlərindən biri də budur ki, qitənin müxtəlif ölkələrinin təhlükəsizlik barədə tarixi təsəvvürləri eyni deyil. Qərbi Avropanın bəzi ölkələrində XX əsrin müəyyən hadisələri artıq tarix kitablarının mövzusuna çevrilib. Mərkəzi və Şərqi Avropa ölkələrində isə həmin hadisələrin bir çoxu hələ də insanların yaddaşında canlıdır. Bu fərqi nəzərə almamaq olmaz. Latviyanın yaddaşında müstəqillik uğrunda mübarizə xüsusi yer tutur. Ukraynanın yaddaşı isə bu gün davam edən müharibənin təsiri altında formalaşır. Polşanın, Baltik ölkələrinin, Finlandiyanın və digər Avropa dövlətlərinin də özünəməxsus tarixi təcrübəsi var. Avropa təhlükəsizlik siyasəti hazırlanarkən bütün bu fərqlər nəzərə alınmalıdır. Avropanın birləşib bütövləşməsi xalqların öz tarixini unutması demək olmamalıdır, əksinə, güclü Avropa müxtəlif xalqların təhlükəni niyə fərqli qəbul etdiyini başa düşməyi bacarmalıdır. Yalnız bu halda Avropada həqiqi siyasi birlikdən danışmaq olar.

### Brüssel Şərqi Avropanı dinləməlidir

Avropa qurumları ümumi təhlükəsizlikdən çox danışır. Amma bütün Avropanın təhlükəsizliyini təmin etmək üçün Mərkəzi və Şərqi Avropa ölkələrinin tarixi təcrübəsini də anlamaq lazımdır. Latviya üçün müstəqillik və ərazi təhlükəsizliyi tarixlə sıx bağlıdır. Ukrayna üçün isə bunlar artıq bu günün məsələsidir. Bu o demək deyil ki, Avropa hər bir ölkənin dediyini avtomatik qəbul etməlidir. Məsələ başqadır. Bir ölkənin mövqeyini qiymətləndirməmiş onun hansı tarixi yol keçdiyini başa düşmək lazımdır, əks halda Avropada təhlükəsizliklə bağlı müzakirələr kağız üzərində gözəl görünsə belə real həyatdan kənarda qalacaq. Müstəqilliyinə qarşı təhlükə ilə birbaşa üzləşmiş ölkələr bəzi risklərə uzun illər rahat şəraitdə yaşamış ölkələrdən fərqli baxır. Ona görə də onların səsi ümumavropa təhlükəsizlik müzakirəsində eşidilməlidir.

### Yaddaş insanları qarşı-qarşıya qoymamalıdır

Tarixi yaddaşın başqa tərəfi də var: yaddaş insanları birləşdirə bilər, amma yanlış istifadə olunarsa, cəmiyyəti parçalaya da bilər, bu zaman tarix siyasi mübarizədə alətə çevrilər. Həlak olan insanların xatirəsindən partiya mübarizəsində də istifadə etmək mümkündür. Keçmişdəki faciələr yeni qarşıdurmalar üçün bəhanəyə çevrilə bilər. Bu isə təhlükəli yoldur. Tarixi yaddaşa intiqam üçün yox, məsuliyyət üçün əl atılmalıdır. Əgər cəmiyyət həqiqətən həlak olan insanların xatirəsinə hörmət edirsə, onda əsas məqsəd belə faciələrin bir daha təkrarlanmamasına çalışmaq olmalıdır. Ona görə də başlıca sual yalnız "Biz kimi xatırlayırıq?" deyil. Əsas sual budur: "Biz keçmişdən nə öyrənmişik?"

Yaddaş da təhlükəsizliyin bir hissəsidir Bu gün Avropa yenidən ciddi problemlərlə üz-üzədir. Ukraynada müharibə davam edir, hibrid təhdidlər artır, dron texnologiyaları sürətlə inkişaf edir, kibermüharibə və kiberhücumlar genişlənir, kritik infrastruktur təhlükə qarşısındadır, informasiya müharibəsi aparılır, cəmiyyətlərdə siyasi parçalanma artır. Bütün bunlar Avropa ölkələrini təhlükəsizlik haqqında əvvəlki düşüncələrinə yenidən baxmağa məcbur edir. Amma təhlükəsizlik yalnız tankların, təyyarələrin və hərbi büdcənin hesabına başa gəlmir, bunlardan əvvəl başlayır. Əvvəlcə cəmiyyət öz dövlətinin dəyərini başa düşməlidir. Dövlət qurumları möhkəm olmalıdır. Vətəndaş demokratik sistemi qorumağa hazır olmalıdır. Dövlət informasiya təzyiqinə qarşı dayanmağı bacarmalı, müttəfiqlərlə birlikdə hərəkət edə bilməlidir. Buna görə tarixi yaddaş Avropanın təhlükəsizlik düşüncəsinin vacib hissəsi kimi qəbul edilməlidir.

### Tarixi yaddaş və beynəlxalq hüquq

Müasir beynəlxalq sistemin əsas prinsiplərindən biri budur ki, hər bir dövlətin suverenliyi var, ayrı-ayrı dövlətlərin və xalqların taleyi güc yolu ilə dəyişdirilməməlidir. Dünya müharibələrindən sonra Avropa beynəlxalq təşkilatları və hüquqi mexanizmləri məhz bir məqsədlə yaratdı, çünki hüquqi nizamın dağılmasının hansı ağır nəticələrə gətirib çıxardığını görmüşdü. Amma beynəlxalq hüququn özü dünyada sülhə avtomatik zəmanət vermir. Qanun olmalı, bu qanunları qoruyan institutlar olmalı, həmin institutları işlədən siyasi iradə olmalıdır. Cəmiyyət də nəyi qoruduğunu başa düşməlidir. Ona görə Avropanın təhlükəsizliyi üçün üç şey birlikdə lazımdır: hüquq, güclü dövlət institutları, siyasi məsuliyyət. Bunlardan biri zəifləyəndə bütün sistem zəifləyir.

### Avropa nə dərs çıxara bilər?

Latviya və Ukraynanın tarixi yaddaşı Avropaya bir neçə mühüm dərs verir. Birincisi, müstəqilliyi ömürlük verilmiş zəmanət kimi qəbul etmək olmaz. İkincisi, ölkənin təhlükəsizliyi yalnız xarici müttəfiqlərdən asılı deyil, dövlətin daxildən güclü olması da çox vacibdir. Üçüncüsü, beynəlxalq hüquq Avropa nizamının əsas dayaqlarından biri olaraq qalmalıdır. Dördüncüsü, tarixi yaddaş müharibəni romantikləşdirmək üçün yox, onun əsl qiymətini başa düşmək üçün lazımdır. Nəhayət, ən başlıcası, Avropa öz ölkələrinin tarixini parçalanma səbəbi kimi yox, gələcək üçün dərs və təcrübə kimi qəbul etməlidir.

Latviyanın 1920-ci ildə başına gələnlərlə Ukraynanın XXI əsrdə yaşadıqları arasında təxminən bir əsr var. Tarixi şərait tamamilə fərqlidir, amma bir ümumi fikir var: müstəqillik sadəcə kağız üzərinə yazılan söz deyil, onun arxasında siyasi, hüquqi və insan həyatı baxımından böyük qiymət dayanır. 11 avqust Latviyada müstəqillik uğrunda mübarizə aparan insanların xatırlandığı gündür. 29 avqustda Ukraynada ölkəsini qoruyarkən həlak olmuş müdafiəçilər yad edilir. Bu iki tarixi bir-birindən uzun illər ayırır, amma hər ikisi eyni sualı ortaya qoyur: bu gün yaşayan nəsil vaxtilə insanların həyatı bahasına uğrunda mübarizə aparılmış dövlətin gələcəyini qorumaq üçün nə etməyə hazırdır? Bu sual artıq yalnız həmin ölkələrin özünə yox, bütün Avropaya aid məsələdir, çünki Avropanın ümumi təhlükəsizliyi ayrı-ayrı ölkələrin təhlükəsizliyindən başlayır. Avropa keçmişdə yaşamaq məcburiyyətində deyil, fəqət keçmişi unutmaq da olmaz. Tarixi xatırlamaq gələcəkdən qaçmaq demək deyil, əksinə, gələcəyə daha hazırlıqlı getməkdir.

Xatırlatdığımız hər iki tarix bütün Avropaya çox vacib bir həqiqəti andıra bilər: sülhü əbədi hesab etmək, müstəqilliyi həmişəlik təmin olunmuş saymaq, beynəlxalq hüququn öz-özünə işləyəcəyinə güvənmək olmaz. Bütün bunları qorumaq üçün daim siyasi iradə, güclü dövlət qurumları və cəmiyyətin dəstəyi lazımdır. Məhz buna görə yaddaş Avropanın təhlükəsizliyi baxımından mühümdür. Yaddaş bizə "suverenlik", "ərazi bütövlüyü" və "beynəlxalq hüquq" kimi təmtəraqlı sözlərin arxasında əslində insan əzablarının dayandığını göstərir. Odur ki, anım günləri sadəcə keçmişə baxmaq üçün keçirilmir. Bu gün təhlükəsiz şəraitdə yaşayan bir nəslə adi görünən sabitlik gələcək nəsil üçün qorunması və möhkəmləndirilməsi vacib olan böyük bir sərvətə çevrilə bilər. Yaddaşa sədaqət təkcə həlak olanlara hörmət göstərmək deyil, keçmişi başa düşmək, sülhün qiymətini bilmək və gələcək nəsillər qarşısında məsuliyyət daşımaqdır.



***Kərəmət Qənbərov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi, beynəlxalq hüquq üzrə ekspert və beynəlxalq münasibətlər üzrə tədqiqatçı***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Çətin anda uzanan yardım əli...



## Humanitar yardım: Rəqəmlərdən daha böyük hekayə

Bəzən bir stəkan su, bir tikə çörək, xoş bir söz insan üçün böyük ümidə çevrilir. Çətin günlərdə insanın ən çox ehtiyac duyduğu şey yalnız maddi yardım deyil. O, tək olmadığını hiss etmək istəyir. Müharibələr, təbii fəlakətlər, aclıq və yoxsulluq milyonlarla insanın həyatına təsir edir. Belə vaxtlarda humanitar yardım könüllüləri və yardım təşkilatları ən çətin bölgələrə üz tuturlar. Onlar ərzaq və su çatdırır, tibbi dəstək göstərir, evlərini itirən insanlara yardım edirlər.

Amma humanitar yardımın mənası yalnız rəqəmlərlə ölçülmür. Hər yardımın arxasında bir insan taleyi dayanır. Bir uşağın təbəssümü, bir ailənin yenidən ümidlənməsi, bir insanın həyata bağlanması bu işin ən böyük nəticəsidir.

Avqustun 19-u Ümumdünya Humanitar Yardım Günü kimi qeyd olunur. Bu günün keçirilməsində məqsəd yardıma ehtiyacı olanların əlindən tutan, bu yolda hətta canlarını fəda etməyə hazır olan humanitar işçilərin anılmasıdır. Hər il bu tarixdə fərqli mövzularda çağırışlar başladılır və gün xüsusi olaraq qeyd edilir.

Ümumdünya Humanitar Yardım Günü ilk dəfə 19 avqust 2009-cu ildə qeyd edilib. Qeyd olunmasının əsas qəhrəmanı isə BMT-nin humanitar qurumunun əməkdaşı, braziliyalı Serjiu Vieyra di Mellu idi. Braziliya vətəndaşı olan Serjiu Vieyra di Mellu Birləşmiş Millətlər Təşkilatında ömrünün 30 ildən çox hissəsini silahlı qarşıdurmanın səssiz qurbanlarını ortaya çıxarmaq, onların iztirablarını azaltmaq və diqqətlərini özlərinə cəlb etmək kimi çətin humanitar vəziyyətlərə xidmət edilməsinə həsr etmişdi. 19 avqust 2003-cü ildə Bağdadda 21 həmkarı ilə birlikdə ölümü dünya miqyasında silahlı qarşıdurma qurbanlarını düşüncə tərzi, fəlsəfəsi, dinamizmi və cəsarəti ilə hamıya ilham verən və gələcək nəsillərin təqlid etməsi üçün sonsuz bir miras olaraq qalmış görkəmli bir humanitar liderdən məhrum etdi.

Bu hadisədən 4 il sonra - 2006-cı ildə Vieyra di Mellu ailəsi dostları ilə birlikdə Serjiu adına fond yaratdı. "Sergio Vieira de Mello Foundation" adlandırılan fond bütün hökumətlər, Birləşmiş Millətlər Təşkilatı, beynəlxalq təşkilatlar və qeyri-hökumət təşkilatları ilə sıx əməkdaşlıq edərək hər il Dünya Humanitar Yardım Gününü anlamlı şəkildə qeyd etməyi qarşısına məqsəd qoyub.

Humanitar Yardım Günü hər il fərqli mövzular ətrafında müzakirələr aparılır, layihələr hazırlanır. Məsələn, 2010-cu ildə "Biz Humanitar İşçiləik", 2011-ci il "İnsanlara kömək edən insanlar", 2012-ci il "Mən buradaydım", 2013-cü ildə, hadisənin 10 illiyində BMT və tərəfdaşları "Dünyanın daha çox ehtiyacı var ..." adlı layihə başladılmışdı.

Ümumdünya Humanitar Yardım İşçiləri hazırda çox çətin şəraitdə işləyirlər. 2017-ci ildə aparılan statistikaya görə, son 20 il ərzində 4132 yardım işçisi terror qurbanı olub. Təkcə 2016-cı ildə 91 nəfər öldürülüb, 88 nəfər yaralanıb. Belə hadisələr daha çox Suriya, Əfqanıstan, Cənubi Sudan, Konqo və Somali kimi ölkələrdə baş verir.

Yardım işçilərinə qarşı törədilən hər bir cinayət, vəhşilik acınacaqlı və dözülməzdir. Bu kimi cinayət aktlarını normallaşdırmaq olmaz. Yardım işçilərinin hüquqlarının qorunmaması ən sonda yardıma ehtiyacı olan insanlara qarşı da ədalətsizlik deməkdir.

1988-ci il Spitak zəlzələsini xatırladaq. Ermənistanın şimalında 7 bal gücündə dağıdıcı zəlzələ baş vermişdi. Episentri Spitak şəhəri olan zəlzələ zamanı 25 mindən artıq adam həlak olmuş, 170 min nəfər isə xəsarət almışdı. Zəlzələdən sonra ilk olaraq Ermənistana Azərbaycan yardım əlini uzatmışdı. Onda azərbaycanlı briqada yüzlərlə yaralı ermənini dağıntılar altından xilas etdi. Dekabrın 11-də isə Azərbaycandan Spitaka yardım məqsədi ilə 78 nəfər könüllüdən ibarət ikinci qrup yığıldı. Lakin könüllüləri Spitaka aparan "İL-76" təyyarəsi Ermənistan ərazisində vurulmuşdu...

Azərbaycan həmişə humanitar yardımlara qoşulan ölkələr sırasındadır. Hələ XX əsrin əvvəllərində, Pakistan ərazisi o vaxtlar Britaniya müstəmləkəsi olduğu dövrdə bölgədə yayılmış pandemiyada insanlar ağır xəstəlikdən kütləvi şəkildə həyatlarını itirirdilər. Belə çətin zamanda Hacı Zeynalabdin Tağıyev şəxsi vəsaiti hesabına 300 min ampula peyvənd alaraq indiki Pakistan ərazisinə göndərib və pandemiyanın qarşısını almaqda mühüm rol oynayıb.

Yaxın keçmişə nəzər saldıqca bu xronologiya daha da böyüyür: Azərbaycan COVID-19 pandemiyası ilə mübarizəyə dəstək məqsədilə Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları yardım göstərib. Vaksinlərin bərabər və ədalətli şəkildə əlçatan olmasını müdafiə edən ilk ölkələrdən biri olan Azərbaycan bu mövzuda nəcib təşəbbüslər irəli sürüb.

2023-cü il fevralın 6-da qardaş Türkiyədə baş vermiş dağıdıcı zəlzələ Azərbaycan xalqı tərəfindən dərin kədərlə qarşılandı. Hadisədən dərhal sonra Azərbaycan hökuməti və xalqı qardaş ölkəyə yardım etmək üçün həmrəylik nümayiş etdirdi. Prezident İlham Əliyevin xüsusi göstərişi ilə bölgəyə xilasetmə dəstələri, tibbi personallar, 5 min tondan çox humanitar yardım göndərildi.

Azərbaycan qlobal miqyasda humanizm və həmrəyliyin bariz nümunəsini göstərməkdə davam edir. Ölkəmiz yardım əlini yalnız regiona deyil, həmçinin Afrika və Latın Amerikası ölkələrinə də uzadıb. Ən çətin anlarda ehtiyac içində olanların yanında dayanmaq prinsipini əsas tutan Azərbaycan, hətta 2014-cü ildə güclü leysan yağışlarının zərər vurduğu Serbiya, Bosniya və Herseqovinaya humanitar yardımlar göndərmişdi. Ukraynada isə müharibənin təsirlərini azaltmaq məqsədilə göstərilən yardımlar diqqət mərkəzindədir. Son bir ildə bu ölkəyə edilən humanitar, bərpa və yenidənqurma yardımlarının ümumi məbləği 70 milyon manata (40 milyon ABŞ dollarından artıq) çatıb. 2024-cü ildə Azərbaycanın yardımları daha geniş coğrafiyanı əhatə edib. Çili, Kolumbiya, Kuba, Qrenada, Sent Vinsent və Qrenadin, Antiqua və Barbuda, Vyetnam, Yəmən, İordaniya, Əlcəzair, Argentina, Braziliya, Albaniya, Zimbabve, Tacikistan, Qambiya və Uqanda bu dəstəyin faydasını görən ölkələr arasında olub.

Azərbaycan, həmçinin beynəlxalq əməkdaşlığa töhfələrini davam etdirir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Fövqəladə Hallara qarşı Mərkəzi Cavab Fondu, İnsan Hüquqları üzrə Ali Komissarlıq, Beynəlxalq Qızıl Xaç Komitəsi, ICESCO və İƏT kimi qurumlara maliyyə dəstəyi ayrılıb. COP29-a sədrliyi çərçivəsində isə İEOÖ və SIDS ölkələrinə diqqət artırılıb. Antiqua və Barbudada keçirilən SIDS üzrə Beynəlxalq Konfrans və Malavidə iqlim dəyişmələri mövzusunda strateji iclaslar üçün də maliyyə dəstəyi təmin edilib.

*Yeganə BAYRAMOVA*

# Hiperaktiv uşaqlarla davranış...

## Validеynlər nələri bilməlidirlər?

Bəzi uşaqlar yerində uzun müddət sakit otura bilmir. Dərs zamanı tez-tez ayağa qalxır, söhbətlərə müdaxilə edir, verilən tapşırıqları yarımçıq qoyur. Belə uşaqlar haqqında çox vaxt "dəcəl", "sözə baxmayan" kimi ifadələr işlədilir. Halbuki hərəkətli olan hər bir uşaq sadəcə dəcəl deyil, həmçinin "hiperaktiv" sayılır. Onların bu davranışının arxasında diqqət və impuls nəzarəti ilə bağlı çətinliklər də dayana bilər.

Araşdırmalara əsasən, hiperaktiv övladı olan anaların çoxu hamiləlik dönəmində toksikozdan, yüksək təzyiqdən əziyyət çəkirlər. Uşaqlarda bu cür yüksək aktivlik ən çox 3 yaşından başlayır. Əgər bu cür uşaqlarda əvvəlcədən mütəxəssis yardımı alınmazsa, yeniyetməlik çağlarında qaydalara tabe olmaq istəməməsi və digər zərərli vərdişlər rast gəlinə bilər.

### Hiperaktiv uşaqların davranışı

Belə uşaqlar diqqətini cəmləməkdə çətinlik çəkirlər. Məsələn, mebellərin üstü ilə gəzir, evin içində qaçır, daim əllərində hansısa bir oyuncaq və ya əşya ilə oynayır, növbəsini gözləmək məsələsində də çox səbirsizdilər. Lakin bu uşaqlar diqqət əskikliyi göstərmədən saatlarla televizora baxır, kompüter oyunları oynayırlar.

Psixoloq Aytən Ələkbərova "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, hiperaktivliyin əlamətləri uşaqlarda yeddi ayından əvvəl yaranmağa başlayır: "Hiperaktiv uşağa davamlı

### Uşağı dinləmək lazımdır

"otur", "sus", "tərpənmə" demək problemi həll etmir. Əksinə, uşaq özünü daim danlanmış hiss edə bilər. Daha düzgün yanaşma konkret və qısa göstərişlər verməkdir. Məsələn, "özünü yaxşı apar" əvəzinə "indi dəftərini aç və birinci tapşırığı et" demək daha aydındır. Uşağın diqqətini uzun müddət bir işdə saxlamaq çətin ola bilər. Buna görə tapşırıqları kiçik hissələrə bölmək faydalıdır".



### Uşağın enerjisini düzgün istiqamətləndirmək

Psixoloq qeyd edib ki, hərəkətli uşağın enerjisini tamamilə məhdudlaşdırmaq düzgün deyil: "Fiziki fəaliyyət üçün imkan yaratmaq vacibdir. Gəzinti, idman və açıq havada oyun uşağın gündəlik rejiminin bir hissəsi ola bilər. Dərs zamanı da qısa fasilələr kömək edə bilər. Əsas məqsəd uşağı "sakitləşdirmək" yox, onun enerjisini idarə etməsinə kömək etməkdir". Hiperaktiv uşaqla davranışın əsas prinsipi cəza deyil, düzgün struktur yaratmaqdır. İlk növbədə uşağın davranışının səbəbi araşdırılmalıdır. Uşağın yaşı da nəzərə alınmalıdır. Kiçik yaşlarda hərəkətlilik müəyyən həddə normal ola bilər. Problem davranışın davamlı olması və uşağın gündəlik həyatına ciddi təsir göstərməsi zamanı daha diqqətlə qiymətləndirilməlidir.

Valideyn uşağın qarşısında uzun-uzadı nəsihət verməməlidir. Qısa və konkret danışmaq daha effektivdir. Gündəlik rejim də böyük əhəmiyyət daşıyır. Yuxu, qidalanma, dərs, oyun və fiziki aktivlik üçün mümkün qədər sabit vaxtların olması uşağın işini asanlaşdırır.

Məktəblə əməkdaşlıq da vacibdir. Müəllim və valideyn eyni yanaşmanı tətbiq etməlidir. Uşaq hər mühitdə başqa, digərində tamamilə fərqli qaydalarla qarşılaşmamalıdır. Ən vacibi isə uşağı davranışına görə utandırmamaqdır".

### Yardımsevər xarakterə malik olurlar

Psixoloqun sözlərinə görə, hiperaktiv uşaq "problemli uşaq" deyil, o, davranışını idarə etmək üçün bəzən digər uşaqlardan daha çox dəstəyə ehtiyac duyan uşaqdır: "Hiperaktiv uşaqlar adətən parıldayan nəsnələrə daha maraqlı olurlar. Onlar eyni vaxtda hər şeylə məşğul olmaq istəyir, qayda-qanunlara tabe olmur, dəcəlliklər və diqqət əskikliyi ilə müşahidə olunurlar.

Hiperaktiv uşaqlar bir sıra müsbət xüsusiyyətlərə də malikdirlər. Ünsiyyətə meyilli olurlar və hər hansı bir şeydən dərhal ilhamlana bilirlər, yardımsevər xarakterə malik olurlar. Bunlara baxmayaraq, onlar özlərini ifadə edə bilməkdə və dost qazanmaqda çətinlik yaşayırlar. Bu çətinlik məktəbdə konsentrasiya problemi olaraq özünü göstərir. Hiperaktivliyi müəyyən etmək üçün xüsusi test yoxdur. Valideynlər bir neçə qaydalara riayət etməklə əlamətləri müəyyən dərəcədə korreksiya edə bilərlər".

### Valideynlərə məsləhət...

Psixoloq bildirib ki, hiperaktiv övladı olan valideynlərin diqqət etməli olan bir neçə vacib məqamlar var: "Valideynlər uşağın uğurlarını vurğulamalı, faydalı davranışlarına görə onları tərifləməlidirlər. Eyni zamanda uşağa icazə verməlidirlər ki, öz enerjisini faydalı və səmərəli işlərə sərf etsin. Məsələn: idman hərkətləri, təmiz havada gəzinti və s.

Bundan başqa, bacardıqca "yox", "olmaz" sözlərini təkrar etməməlidirlər. Uşaq hər nə qədər dəcəl, hiperaktiv olsa belə, onlara sakit və təmkinlə yanaşmaq lazımdır".

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4486
Sifariş: 1076
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova